












# Azərbaycan üzrə Ölkə Strategiyası

## 2019-2024

**25 aprel 2019-cu il tarixində İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur**

European Bank
for Reconstruction and Development

PUBLIC

# Mündəricat və Lüğət

Mündəricat


Qısa İcmal 3

Azərbaycan– AYİB Ani baxış 4

I. Bundan əvvəlki Strategiyanın İcrası – 2014-2017 5

Bundan əvvəlki strategiya müddətində keçidin əldə edilmiş əsas nəticələri 5

İcranın çətinlikləri və Əldə edilmiş əsas təcrübə 7

II. İqtisadi Kontekst 8

Makroiqtisadi Məzmun və Strategiya Müddəti üçün Perspektiv 8

Keçidin əsas çətinlikləri 9

III. Hökümətin üstünlük verdiyi məsələlər və Maraqlı tərəflərin cəlb edilməsi 11

IV. Azərbaycanın Ölkə üzrə Strateji Prioritetlərinin Müəyyənləşdirilməsi 12

V. Fəaliyyətlər və Nəticələr çərçivəsi 13

VI. AYİB Biznes sahələrində Beynəlxalq Tərəfdaşların səlahiyyət ierarxiyasının sxeminin hazırlanması 16

VII. İcranın riskləri və Ətraf mühitə və Sosial sahəyə təsirlərin nəticələri 17

VIII. Donor birgə maliyyələşdirməsinin qiymətləndirilməsi 18

Əlavə 1 - Siyasi Qiymətləndirmə 20


**Əsas Terminlər Lüğəti**

| | |
|---|---|
| İİS | İllik İşgüzar Sərmayə |
| KBM | Kiçik Biznesə Məsləhət |
| AZKTML | Azərbaycan Kənd Təsərrüfatını Maliyyələşdirmə Layihəsi |
| BMTİST | Biznes Mühiti və Təşkilatların İş Səmərəliliyinin Tədqiqi |
| QESP | Qafqazda Enerji Səmərəliliyi Proqramı |
| AMB | Azərbaycan Mərkəzi Bankı |
| COOs | Əməliyyat Ölkələri |
| COP21 | Birləşmiş Millətlər Təşkilatının İqlimin Dəyişməsi ilə bağlı 2015-ci il Konfransı |
| ƏMSS | Ətraf mühit və Sosial Sahə |
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| SKB | Səhm Kapitalı Bazarları |
| ES | Enerji səmərəliliyi |
| E5P | Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf mühit üzrə Tərəfdaşlıq |
| AİB | Avropa İnvestisiya Bankı |
| KGT | Keçid mərhələnin Gözlənilən Təsiri |
| Aİ | Avropa İttifaqı |
| BXİ | Birbaşa Xarici İnvestisiya |
| MQ | Maliyyə Qurumu |
| MBNP | Maliyyə Bazarlarının Nəzarət Palatası |
| FINTECC | İqlim Dəyişikliyi üzrə Maliyyə və Texnologiyanın Köçürülməsi Mərkəzi |
| YİML | Yaşıl İqtisadiyyatı Maliyyələşdirmə Layihəsi |
| YİK | Yaşıl İqtisadiyyata Keçid |
| İXQ | İstixana Qazları |
| SƏT | Sağlamlıq və Əməyin Təhlükəsizliyi |

| | |
|---|---|
| ABB | Azərbaycan Beynəlxalq Bankı |
| SKA | Sənaye, Kommersiya və Aqrobiznes |
| İKT | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| BMQ | Beynəlxalq Maliyyə Qurumu |
| BMHS | Beynəlxalq Maliyyə Hesabatı Standartları |
| İKY | İlkin Kütləvi Yerləşdirmə |
| İLHK | İnfrastruktur Layihəsinin Hazırlanması üçün Kredit |
| İsİB | İslam İnkişaf Bankı |
| YV | Yerli Valyuta |
| QA | Birləşmə və Satınalmalar |
| İX | İstehsal və Xidmətlər |
| Manat | Azərbaycanın Yerli Valyutası |
| MKOS | Mikro, Kiçik və Orta Sahibkarlıq |
| MMÖ | Milli səviyyədə Müəyyən edilmiş Ödəniş |
| ÜK | Ümidsiz Kreditlər |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| DTİHB | Demokratik Təşkilatlar və İnsan Hüquqları Bürosu |
| DÖT | Dövlət-Özəl Tərəfdaşlıq |
| ÖMQ | Özəl Maliyyə Qurumu |
| PR2 | Ekologiya və Sosial sahə Siyasəti çərçivəsində Məhsuldarlıq Tələbləri |
| PKT | Portfelin Keçid dövrünün Təsiri |
| RS | Resursların Səmərəliliyi |
| RBM | Riskin Bölüşdürülməsi Mexanizmi |
| CQD | Cənubi Qaz Dəhlizi |
| KOS | Kiçik və Orta Sahibkarlıq |
| DMB | Dövlətə Məxsus Bank |
| DMM | Dövlətə Məxsus Müəssisə |
| ARDNF | Azərbaycan Dövlət Neft Fondu |
| TƏ | Texniki Əməkdaşlıq |

# Qısa İcmal

Azərbaycanın Bankın Təsis edilməsinə dair Sazişinin 1 Maddəsində qeyd edilmiş siyasi prinsipləri əsas tutmaq və tətbiq etmə öhdəliyi bundan əvvəlki Ölkə Strategiyası dövründə, xüsusilə, 2014-2015-ci illərdə beynəlxalq səviyyədə narahatlıq doğurmuşdur. Dövlət orqanları tərəfindən son zamanlarda bir neçə ciddi addım atılmış və müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq ümumilikdə artmışdır.

Müvafiq beynəlxalq təşkilatlar siyasi sistemdə yoxlama və tarazlığın qorunması, demokratiyanın və qanunun aliliyinin gücləndirilməsi, insan hüquqları və fundamental azadlıqlara hörmətin təmin edilməsi, o cümlədən vətəndaş cəmiyyətinin fəaliyyət göstərə biləcəyi mühitin təmin edilməsi ilə bağlı öz narahatlıqlarını dilə gətirmişlər. Bu sahələrdə irəliləyiş müstəqil, stabil və çiçəklənən Azərbaycanın inkişafı üçün mühüm məsələ olaraq qalır. Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in və Avropa Şurasının üzvü kimi Azərbaycan beynəlxalq öhdəliklərin yerinə yetirilməsini üzərinə götürmüşdür. 2017-ci ilin fevral ayında yeni hərtərəfli sazişlə bağlı danışıqlara başlamaqla, Aİ və Azərbaycan əməkdaşlıq və dialoqu nəzərdə tutan, o cümlədən yuxarıda qeyd edilmiş narahatlıq sahələrinin də əhatə olunduğu iddialı və hərtərəfli gündəliyi yerinə yetirmək öhdəliklərini yenidən təsdiq etdilər.

Azərbaycanın 2005 və 2014-cü illər arasında əlverişli əmtəə qiymətlərinə əsaslanan sürətli iqtisadi inkişafı ölkənin əsas iqtisadi strukturunun dəyişməsi ilə nəticələnmədi, belə ki, bu strukturun zəifliyi əmtəənin super siklinin sonunda daha da aydın nəzərə çarpdı. Bunun ardınca gəlmiş 2014-2015-ci il bankçılıq böhranı və iqtisadi tənəzzül Bankın bundan əvvəlki Ölkə Strategiyası çərçivəsində fəaliyyətinə təsir etsə də, iqtisadi islahatın yeni mərhələsi iqtisadiyyatın əsas sektorlarında dövlət orqanları ilə daha yaxın əməkdaşlığa yol açdı. İqtisadiyyatın kiçik miqyaslı kənd təsərrüfatından və xidmətlər sektorundan kənara çıxaraq digər sahələri əhatə etməsini stimullaşdırmaq və əhalinin aztəminatlı seqmentləri üçün iş yerləri yaratmaq məqsədilə təcili islahatlar daha çox tələb olunur. Keçid dövründə yaranan çətinliklər əsasən **rəqabətə davamlılıq** və **idarəetmə** (aşağı məhsuldarlığa malik qeyri-neft özəl sektor, geniş qeyri-rəsmi sektor ilə xarakterizə olunan iqtisadiyyat və iqtisadiyyatın əsas sektorlarında dövlətin üstünlük təşkil etməsi), **dayanıqlılıq** (zəif bank sektoru və məhdud imkanlara malik maliyyə bazarları ilə), və **yaşıl** iqtisadiyyat (yüksək enerji intensivliyi, bərpaolunan enerjidən az istifadə və, xüsusilə, kənd yerlərində keyfiyyətli su və çirkab suları xidmətlərindən istifadənin mümkün olmaması) sahələrində kəskindir.

İqtisadi sistemdə davam edən kövrəklikləri nəzərə almaqla, Bank maliyyə sektorunu möhkəm bünövrənin üstünə qoymaq və kreditləşmə fəaliyyətini bərpa etmək cəhdlərini dərinləşdirəcək. Bank eyni dərəcədə iki tərəfli yanaşma: özəl sektorun inkişafını dəstəkləmə və dövlət və özəl sektorların idarəedilməsini gücləndirmə, eyni zamanda ölkənin Yaşıl İqtisadiyyata Keçidinə dəstəyi artırma vasitəsilə iqtisadi diversifikasiyanı dəstəkləməyə davam edəcək. Bu fon qarşısında əsas siyasət oyunçuları enerji bazarında islahatlar aparmaq və işgüzar fəaliyyət üçün bərabər şərtlərə malik fəaliyyət sahəsi yaratmaq cəhdlərini davam etdirəcək. Buna əlavə olaraq, Aİ ilə davam edən yaxşı münasibətlər, o cümlədən texniki yardım və qrantlar formasında göstərilmiş donor dəstəyi (məs. enerjinin səmərəliliyi üçün) Bankın 2019-2024-cü illərdə Azərbaycanda aşağıdakı strateji prioritetləri həyata keçirməsi üçün vacib olacaq:

- **Rəqabətliliyi** və yaxşı **İdarəçiliyi** dəstəkləməklə, iqtisadi diversifikasiyanı təşviq etmək;
- Maliyyə bazarlarını inkişaf etdirməklə **Dayanıqlılığı** gücləndirmək;
- **Yaşıl** İqtisadiyyata Keçidi və Regional Əlaqəni dəstəkləmək.

# Azərbaycan– AYİB Ani baxış

European Bank
for Reconstruction and Development

## AYİB-in Azərbaycanda Sərmayə Fəaliyyətləri (Dek. 2018-ci ilin sonu)

| | | | |
|---|---|---|---|
| Portfel | €1,4 milyard | Davam edən layihələr | 45 |
| Səhm kapitalı (%, portfel) | 2% | Əməliyyat aktivləri | €1027m |
| Özəl Səhm[1] | 47% | Xalis toplam sərmayə | €3,2 milyard |

## İİS və Əməliyyatlar




## Portfelin Tərkibi




## Portfelin Dinamikası




## Keçid dövrünün çatışmazlıqları[2]




## Azərbaycan üzrə əsas göstəricillər

| | | |
|---|---|---|
| Əhali (m)[3] | 9,9 | 2018 |
| Adam başına düşən ÜDM (AQP, cari beynəlxalq dollar)[4] | 17 955 | 2018 |
| Qlobal Rəqabətlilik İndeksi (QİF) | 69-cu *140-dan* | 2018 |
| Bizneslə məşğul olmanın asanlığı (DB) | 25-ci *190-dan* | 2019 |
| Korrupsiyanı Qavrama İndeksi (Transparency International) | 152-ci *180-dən* | 2018 |
| Gənclər arasında işsizlik (%, BƏT eht.)[5]<br>*Müqayisə üçün: Belarus (1,1%), Gürcüstan (28,4%), Ukrayna (22,4%)* | 14,0% | 2018 |
| Qadınların işlə təmin olunması (%, BƏT eht.)[5]<br>*Müqayisə üçün: Belarus (58,2%), Gürcüstan (58,0%), Ukrayna (46,6%)* | 62,8% | 2018 |
| Enerji intensivliyi, TPES/ÜDM (toe/min 2010 ABŞ dolları)[6]<br>*Müqayisə üçün: Belarus (0,42), Gürcüstan (0,32), Ukrayna (0,76)* | 0,25 | 2016 |
| Emissiyanın intensivliyi, $CO_2$/ÜDM (kq CO2/2010-cu ildə ÜDM $)[6]<br>*Müqayisə üçün: Belarus (0,9), Gürcüstan (0,58), Ukrayna (2,0)* | 0,55 | 2016 |

*[1.]5-illik növbəti ilə keçən portfel dərəcəsi [2]Cf. AYİB Keçid Hesabatı 2018-2019 [3]Milli Statistik orqanları [4] BVF DII (oktyabr 2018), proqnoz[5] Dünya Bankı DII [6] BEA*

PUBLIC

# 1. Bundan əvvəlki Strategiyanın İcrası (2014-2018)

European Bank
for Reconstruction and Development

## 1.1. Bundan əvvəlki strategiya müddətində keçidin əldə edilmiş əsas nəticələri

### Strateji Uyğunlaşdırma 2014-2018[1]*

İllik İşgüzar Sərmayə (İİS)




*Dek 2018 sonundan etibarən

### Strateji Uyğunlaşdırma 2014-2018[1]

Texniki Yardım və İnvestisiya Qrantları*




### Keçidə təsir edən Fəaliyyət[2]*

Aktiv təkmil portfel




## Prioritet 1: Bazar əsaslı diversifikasiyanı təbliğ etmə

### KBM müştəriləri öz ... artırdılar




### Keçidin əsas nəticələri

- **Çətin iqtisadi mühitə baxmayaraq, qeyri-neft sektorunun rəqabətə davamlılığının gücləndirilməsinə öz töhfəsini verdi:** Ümumilikdə 50 özəl sektor əməliyyatlarına investisiya yatırmaqla özəl sektor əsaslı diversifikasiyanı artırdı (MQ da daxil olmaqla İİS üçün toplam €618); onlardan 48 layihə qeyri-neft sektoru üçündür (İİS €223m) / və ya MQ biznesi istisna olmaqla 34 layihə (İİS €182m).
- **KBM-da yaxşı nəticələrə nail olaraq, məhsuldarlığın artması ilə nəticələndi:** Təsdiq edilməmiş qrantların qeydiyyat problemlərini həll etdi (2014-cü il noyabr ayından) və yarımçıq dayandırılmış KBM əməliyyatları yenidən başladı. Bu müddət ərzində cəmi 244 əməliyyat, o cümlədən 28 gender yönümlü və 16 beynəlxalq məsləhətçisi olan, əsas diqqəti həssas MKOS dəstəkləyərək, digərləri ilə yanaşı onların MİS, biznes strategiyalarını və məhsuldarlığını təkmilləşdirməyə yönəldən əməliyyat başa çatdırıldı. Bununla belə, yalnız bir neçə KOS ixrac yönəmli olub, Azərbaycan sənayesinin qiymət rəqabətliliyində çətinliklərini əks etdirir.
- **Az uğurlu olmasına baxmayaraq, enerji və resursların səmərəliliyini dəstəklədi,:** Maliyyə vasitəçilərinin köməyi ilə (Dəmir Bank, Muğan Bank, UniBank və BOKT FINCA Azərbaycan) 20 milyon avroluq Qafqaz Enerji Səmərəliliyi Proqramı (QESP) çərçivəsində enerjinin davamlı maliyyələşdirilməsini dəstəklədi, lakin maliyyə məhdud səviyyədə paylandı (ancaq €7 milyon ayrılmışdı ki, bu da az rentabelli idi). Azərbaycan korporasiyalarında (Avto Azərbaycan, Bakı Elektroniks, Veysəloğlu və BMI&NKM) ES-ni stimullaşdırmaq üçün €12,6 milyon məbləğində FINTECC qrantını imzaladı. 2014-cü ildən bəri $CO_2$ emissiyalarında ehtimal edilən azalma ildə 91 kt $CO_2$ təşkil edir; enerjiyə qənaət ildə 204,699 kC-a bərabərdir.
- **Bakıdan kənarda regionların inkişafına yardım etdi:** Paytaxt şəhərdən kənarda fəaliyyət göstərən şirkətləri dəstəkləməyə davam etdi (Gədəbəy, AzərStar, Zəhmət Ruzi və s).
- **Cəlbedici səhm kapitalı üçün investisiya imkanlarını tapmaq hələ də çox çətindir,** çünki maliyyə bazarları yaranma mərhələsindədir.

1. *Strateji prioritetlər 2014-2017: 1) Bazar əsaslı diversifikasiyanın təşviqi; 2) Özəl sektorun inkişafını dəstəkləmək üçün dayanıqlı maliyyə sektorunun inkişaf etdirilməsi; 3) İdarəetmə və biznes mühitini təkmilləşdirmə*
2. *Keçidin təsir etdiyi fəaliyyət layihələri onları imzalayan zaman gözlənilən keçid təsirinə necə nail olacaqlarını əks etdirir. Təkmil portfel əsasında hesablanmışdır (iki ildən artıq).*

PUBLIC

# 1. Bundan əvvəlki Strategiyanın İcrası (2014-2018)

*1.1. Bundan əvvəlki strategiya müddətində keçidin əldə edilmiş əsas nəticələri*

European Bank
for Reconstruction and Development

## Prioritet 2: Özəl sektorun inkişafını dəstəkləmək üçün dayanıqlı maliyyə sektorunun inkişaf etdirilməsi

### Keçidin əsas nəticələri

- **Özəl sektorun səmərəli maliyyələşdirilməsini təmin etmək üçün maliyyə vasitəçiliyini dəstəklədi:** Bank olmayan MQ və MQ müştəriləri ilə toplam İİS €41m olan 14 əməliyyatı başa çatdırıldı ki, bu, maliyyə vasitəçilərinin təşkilati inkişafına imkan verdi və MKOS-un maliyyə vasitələrini almaq imkanını artırdı.
- **2014-cü ildə məhsul portfelini genişləndirməyə başladı və maliyyə vasitəçilərinin kredit vermə metodologiyalarını gücləndirdi; işlər maliyyə böhranı nəticəsində dayandırıldı.** 2014-cü il sentyabr ayında Riskin Bölüşdürülməsi Mexanizmi RBM (keçmiş MCFF) proqramı çərçivəsində yeni müştəri - Muğan Bank təqdim edildi. 2015-ci ilin aprel ayında Kənd Təsərüfatı Nazirliyi, Aİ və digər donorların və müvafiq təşkilatların fəal iştirakı ilə yeni Azərbaycan Kənd Təsərrüfatını Maliyyələşdirmə Layihəsi (AZKTML) razılaşdırıldı (lakin 2015-2017-ci illər böhranı ilə əlaqədar ÖMQ-ları hələ fəal deyil).
- **Xarici valyuta tərəddüdlərinə ən çox həssas olan MKOS üçün yerli valyuta kreditləri verildi (həm maliyyə vasitəçilərindən istifadə etməklə, həm də birbaşa):** FINCA Azərbaycana yerli valyuta ilə €6m ekvivalentində kredit verməklə, xüsusilə Azərbaycanın az inkişaf etmiş bölgələrində inkişaf etməkdə olan özəl sektor MKOS-nı dəstəklədi. Bundan əlavə, KOS-un inkişafına məqsədə uyğunlaşdırılmış yerli valyuta maliyyələşdirilməsi şəraiti yaratmaq məqsədilə 2017-ci ildə KOS üçün yerli valyuta proqramı qəbul edildi (portfel səviyyəsində 12.5%-lik İlk İtki Riski altında donor tərəfindən dəstəklənən mexanizm). İşə başladığı dövrdən Bank bu proqram altında üç əməliyyatı maliyyələşdirdi (Metak, Xaliq Faiqoğlu və Bakı Elektroniks).
- **Manatın kəskin devalvasiyası fonunda maliyyə sektorunun müştərilərini dəstəklədi (bax, slayd 8):** pisləşən iqtisadi mühiti nəzərə alaraq (devalvasiya, yüksək dollarlaşma və iqtisadi tənəzzül) üç MQ müştərisi (Dəmir Bank, Unibank və Access Bank) üçün cari borcların YV-yə çevrilməsini təmin etdi.
- **Təkrar kapitallaşma səyləri və ciddi tənzimləmə mühitinin yaradılmasında iştirak etdi:** Kapitallaşmanı dəstəkləməklə (Unibank və Access Bank) investisiya qoyulan bankların yeni mühitə uyğunlaşmaları üçün texniki yardım etdi; yeni yaradılmış maliyyə tənzimləyicisi ilə fəaliyyət kursunu razılaşdırdı (MBNP).
- **Yerli kapital bazarlarının və qeyri-bank maliyyə sektorunun inkişafına təkan vermək üçün siyasi iştiraka başladı:** YV Pul Bazarlarına dair səlahiyyətli orqanlar (MBNP və AMB) üçün pul bazarı təhlilini həyata keçirdi. Yerli bazarda Manatla denominasiya olunan istiqrazların yerləşdirilməsi üçün institusional və hüquqi çərçivənin yaradılması üçün göstərilən davamlı səylər.

## Prioritet 3: İdarəetmə və biznes mühitinin yaxşılaşdırılması

### Keçidin əsas nəticələri

- **Bankın müştərisi olan şirkətlər üçün maliyyə vəsaitlərinə çıxışı yaxşılaşdırmaqla, AYİB layihələri üçün BMHS hesabatlılığını təkmilləşdirdi:** BMHS hesabatlılığını təqdim edərək və birbaşa SKA, MQ müştəriləri və KBM MKOS-də **AIP** vasitəsilə maliyyə idarəetmə standartlarını yaxşılaşdıraraq bütün AYİB layihələri üzrə şəffaflığı daha da artırdı.
- **Korporativ idarəetmə sahəsində DMT-lər və digər dövlət qurumları ilə iş birliyi qurdu:** Digər məsələlərlə yanaşı, Kreditor /CQD-də Uyğunluq Tədbiri vasitəsilə $500m TANAP layihəsinin iş həcmləri çərçivəsi də daxil olmaqla, korporativ idarəetmənin gücləndirilməsi səylərini davam etdirdi; Pilot əsaslı texniki xidmət müqaviləsi (PBMC) də daxil olmaqla, institusional gücləndirmə yolu ilə $330m dəyərində Azərbaycan Nəqliyyat Agentliyi; Azərbaycan Beynəlxalq Bankının (ABB) özəlləşdirmədən öncə korporativ idarəetmənin gücləndirilməsi proqramına başladı; Əmlak Məsələləri Dövlət Komitəsinin nəzarət etdiyi DMT-lərdə korporativ idarəetməsinin yaxşılaşdırılmasına dair TƏ başa çatdırdı.
- **Biznes mühitində yaxşılaşdırmaları dəstəklədi və bərabər imkanlara təkan verdi:** İqtisadi diversifikasiyanı (qeyri-neft özəl sektorun inkişafı) dəstəkləmək üçün İqtisadiyyat Nazirliyi ilə Azərbaycan TƏ fondunun yaradılması üçün müzakirələr davam etdirilmişdir. Energetika Nazirliyi ilə Anlaşma Memorandumu imzaladı və müstəqil enerji tənzimləyicisini yaratmaq və bərpa olunan enerji inkişafına imkan vermək üçün donorların maliyyələşdirdiyi TƏ-ləri tətbiq etdi.

# 1. Bundan əvvəlki Strategiyanın İcrası (2014-2018)

*1.2. İcranın çətinlikləri və Əldə edilmiş əsas təcrübə*

European Bank
for Reconstruction and Development

**İcra konteksti:** Bankın bazar yönümlü iqtisadi diversifikasiyanı gücləndirmək, dayanıqlı maliyyə sektorunu inkişaf etdirmək və idarəetməni yaxşılaşdırmaq səyləri kəskin devalvasiya, tərəfdaş banklarda yüksək ÜK səviyyələri və iqtisadi tənəzzül nəticəsində formalaşmış çətin əməliyyat mühitində həyata keçirildi. Ölkədə bankçılıq sahəsindəki böhran fonunda Bankın dayanıqlı maliyyə sektorunu inkişaf etdirmək prioriteti maliyyə sektorundakı qısamüddətli həssaslıqları yüngülləşdirməyə yönəlmiş (borcun konvertasiyası, təkrar kapitallaşdırma səyləri, maliyyə tənzimləməsini restrukturizasiyasının dəstəklənməsi) cəhdlərə fokuslaşdı. İqtisadi tənəzzül həm də Bankın portfelinin restrukturizasiyasına gətirib çıxardı ki, nəticədə əvvəlki proqnoz göstəricilərlər müqayisədə özəl sektorun kreditləşdirilməsi yavaşlatdı. Tənzimləmə mühiti çətin olsa da (məs, 2014-cü ildə qrant qeydiyyat məsələləri) böhran həm də iqtisadiyyatın mühüm sektorlarında səlahiyyətli orqanlarla daha sıx əməkdaşlığa yol açaraq islahat imkanları yaratdı.

## İcra Çətinlikləri

- İqtisadiyyatda dövlətin yüksək səviyyədə iştirakı rəqabətli yerli bazarın inkişafı imkanlarını məhdudlaşdırır.
- 2015-ci ildən bəri restrukturizasiya olunan zəif bankçılıq sektoru maliyyə vəsaitlərinə çıxışı qeyri-neft özəl sektoru ilə məhdudlaşdırmışdır.
- Özəl sektorun fəaliyyətinin qeyri-məhsuldar və kortəbii kənd təsərrüfatı və xidmət sektoru fəaliyyətlərində yüksək səviyyədə təmərküzləşməsi nəticəsində korporativ və KOS sektorlarında bank xidmətinin göstərilməsi və əhəmiyyətli imkanların azlığı.
- Böhran öncəsi kreditləşmənin sürətli artımı və xarici valyutada denominasiya edilmiş kreditləşmənin yüksək səviyyələri bankçılıq sahəsində böhranın özəl sektordakı fəaliyyətlərə əsas ötürücü kanalı rolunu oynadı.
- Korporativ idarəetmədə davam edən çətinliklər və iqtisadiyyatda yüksək qeyri-formallıq səviyyələri özəl sektorun məhsuldalığını azaldır.
- Xarici Birbaşa İnvestisiyaların ölkəyə daxil olaraq qalmasını əngəlləyən zəif biznes mühiti.

## Əsas təcrübə və Önə doğru addım

- Özəl sektorun iştirakı və DMT kommersiyalaşdırılması üçün davamlı təşviq və dəstək; Bankın ABB-yə dəstəyinin gələcəkdə özəlləşdirmə öncəsi səylər (məs., enerji sektorunda) üçün imkanlar açacağı ehtimal edilir.
- Sistem əhəmiyyətli bankların restrukturizasiyası və tərəfdaş maliyyə qurumlarının (TMQ) əhatə dairəsinin genişləndirilməsi sahəsində investisiyalarla yanaşı davamlı təşviqat və bankçılıq sektorundakı islahatlara dəstək.
- Birgə maliyyələşdirmə qrantları və TƏ qrantlarından korporativ idarəetmə, əməliyyat standartlarının yaxşılaşdırılması ilə yanaşı AYİB kredit məhsullarının rəqabət qabiliyyətinin artırılması, habelə davamlı təyinatlı kredit xətlərinin (məs, KOS-lar və qadınlarla bölgələr kimi az təminatlı seqmentlər) davam etdirilməsi.
- Xüsusən də KOS-lar üçün YV kreditləşdirməsi; kapital bazarları və xüsusilə də pul bazarının inkişafı yolu ilə maliyyələşdirmə kanallarının şaxələndirilməsi.
- Korporativ idarəetmənin gücləndirilməsi və biznes mühitinin yaxşılaşdırılmasının layihə səviyyəsində və yüksək səviyyəli siyasi təşviq əsasında davam etdirilməsi. Potensial yüksək imicə malik layihələr (AYİB-in ABB və seçilmiş DMT-lərə korporativ idarəetmə dəstəyi kimi) ciddi nümayiş təsiri yarada bilər.
- Ölkənin biznes mühitinin yaxşılaşdırılması üçün hədəf tədbirlərin müəyyən edilərək dəstəklənməsinə yardım (dövlət və özəl sektorlar arasında ciddi dialoq yolu ilə də) seçilmiş TMQ maliyyələşdirilməsi ilə yanaşı xarici iştirak üçün seçilmiş sektorlara tənzimləmə və hüquqi çərçivənin açılmasını təşviq etmək və bu sahədə dəyişiklikləri dəstəkləmək.

# 2. İqtisadi Kontekst

## 2.1 . Makroiqtisadi Məzmun və Strategiya Müddəti üçün Perspektiv

European Bank
for Reconstruction and Development

**Azərbaycan - Əsas makroiqtisadi göstəricilər**

| | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|
| ÜDM artımı (%, illik dəyişmə) | 1,1 | -3,1 | 0,1 | 1,4 |
| İQİ inflyasiyası (% orta) | 4,0 | 12,4 | 12,9 | 2,3 |
| Dövlət balansı[1] (ÜDM-in %) | -4,8 | -1,2 | -1,7 | 4,8 |
| Cari əməliyyat hesabının balansı (ÜDM-in %-i) | -0,4 | -3,6 | 4,1 | 12,9 |
| Xalis BXİ (ÜDM-in %-i) [mənfi işarə = daxilolma] | -1,5 | -5,1 | -0,7 | 1,7 |
| Xarici borc[2] (ÜDM-in %-i) | 19,8 | 20,3 | 22,7 | 19,0 |
| Cəmi sərmayə (ÜDM-in %-i) | 29,3 | 26,1 | 24,9 | Yoxdur |
| Ümumi dövlətin cəmi borcu[1] (ÜDM-in %-i) | 35,0 | 50,7 | 54,1 | 48,4 |
| Özəl sektor krediti (ÜDM-in %-i) | 40,0 | 27,2 | 16,8 | 16,3 |
| İşsizlik (%) | 5,0 | 5,0 | 5,0 | Yoxdur |
| Nominal ÜDM (milyard ABŞ dolları) | 53,0 | 37,8 | 40,8 | 46,9 |

*Qeydlər: [1]Mərkəzi hökuməti daxil edir: dövlət büdcəsi və əsas büdcədənkənar vəsaitlər, o cümlədən, neft fondu və sosial müdafiə fondunun əməliyyatları. 2016-18-ci il rəqəmləri proqnoz göstəricilərdir. BVF tərəfindən bildirildiyi kimi (Dünya İqtisadiyyat İcmalı Oktyabr 2018).*
*[2] Dövlət və dövlətin zəmanət verdiyi kənar cari borc.*

- **Azərbaycan təbii sərvətlərin zənginliyinə görə ən sürətlə böyüyən iqtisadiyyatlardan biri olmuşdur.** 1995 – 2015-ci illər arasında real ÜDM təxminən 6 dəfə artmışdır. Nominal ifadədə adambaşına düşən ÜDM manatın ciddi devalvasiyasına görə 2018-ci ildə $4 780 səviyyəsinə enməzdən əvvəl 1995-ci ildə $310 ABŞ dollarından 2014-cü ildə $7 991 ABŞ dollarınadək artmışdır. Eyni zamanda neft-qaz sektorunun sürətli artımı digər ixrac yönümlü sənaye sahələrinin sıxışdırılması və iqtisadiyyatın zəif diversifikasiyasına yol açdı. 2018-ci ildə cəmi ÜDM-də neftin payı 39,8% təşkil edirdi və resurs sektoru ixracatın təxminən 91,7%-nə sahib idi.
- **2015-ci ilin ikinci yarısında neft qiymətində kəskin azalma ötən illərdə görünməmiş miqyasda iqtisadi tənəzzülə yol açdı.** 2016-cı ildə ÜDM 3.1% və qeyri-neft sektorunda ÜDM 4.4% azaldı. İqtisadi artım 2018-ci ildə qeyri-neft sektorunda ÜDM-in artımının bərpası hesabına demək olar ki, sabitləşdi. 2018-ci ildə ÜDM 1,4% ilə artdı. Yaxın perspektivdə artım perspektivlərini nisbətən sabit neft qiymətindəki təmayüllər, davamlı artan qaz hasilatı və ixracat imkanlarının genişlənməsi dəstəkləyir. Son tarixdə orta dərəcəli diversifikasiya gəlirləri ortamüddətli iqtisadi artıma uyğun gəlsə də, qeyri-neft iqtisadiyyatının rolunun artırılmasına daha çox ehtiyac var. AYİB iqtisadiyyatın 2019-cu ildə 3,5% artacağını proqnozlaşdırır (Regional İqtisadi Perspektivlər. Noyabr 2018-ci il).
- **Mübadilə məzənnəsində təxminən iki onillik davam edən sabitlikdən sonra Azərbaycan öz valyutasını 2015-ci ildə 50% həddində devalvasiya etdi.** Manat ciddi monetar şərtləri və neft qiymətində artım fonunda 2017-ci ildə stabilləşdi. Ən yaxın tarixdə manatın elastikliyi 2017-ci ilin aprel ayından bəri çox kiçik tərəddüdetmələr səbəbindən ciddi şübhələr doğurdu. Devalvasiya bankçılıq sektorunda balans və aktiv keyfiyyəti ilə bağlı narahatlıqlar və əmanətlərə təzyiqlərə yol açdı. 2018-ci ildə kredit portfelinin azalması dayandı və dollarlaşma səviyyələri bir qədər azaldı. İnflyasiya 2017-ci ildə orta 12.9% səviyyəsindən mübadilə məzənnəsinin stabilləşməsi və ümumən sərt monetar şərtlər fonunda 2018-ci ildə 2,3%-dək azaldı.
- **Azərbaycan əhəmiyyətli likvidlik buferini saxlamışdır.** 2018-ci ilin sonuna Azərbaycan Dövlət Neft Fondunun (ADNF) aktivləri və mərkəzi bankın xarici valyuta ehtiyatları $44,1 milyard təşkil edirdi ki, bu da təxminən ölkənin ÜDM-nə bərabərdir.
- **Neft qiymətində azalma və valyutanın devalvasiyası ölkənin resurs sektoruna əsaslanmasından irəli gələn uzunmüddətli struktur zəifliklərini ortaya çıxardı.** Qeyri-neft sektorunun inkişafının stimullaşdırılması və aşağı neft qiymətinin təsirinin yüngülləşdirilməsi məqsədilə səlahiyyətli orqanlar gömrük idarəetməsi sahəsində ciddi islahatlar apardı, lisenziya və icazələrin verilişini asanlaşdırdı, viza prosedurlarını sadələşdirdi və 2021-ci ilədək yoxlamaları ləğv etdi, qeyri-neft özəl sektoru dəstəkləmək üçün yeni qurumlar yaratdı və bank sektorunda restrukturizasiyaya başladı. Səlahiyyətli orqanların dövlət xidmətlərini yaxşılaşdırmaq üçün addımlar atmalarına baxmayaraq, institusional güc, şəffaflıq və idarəetmə standartlarının daha təkmilləşdirilməsinə ehtiyac var.

*Mənbə: Milli statistika orqanları, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, BVF –nin Dünya İqtisadiyyat İcmalı Okt 2018, Dünya Bankı-nın Dünya İnkişaf Göstəriciləri , AYİB-in Mərkəzi Qiymətli Kağızlar Depozitarlarının qaydaları 2017, AYİB hesablamaları*

# 2. İqtisadi Kontekst

## *2.2 . Keçidin əsas çətinlikləri*[1]

European Bank
for Reconstruction and Development

### Rəqabətə davamlı (10-dan 3,7)

- Çətin **biznes mühiti** yeni şirkətlərin ölkəyə daxil olması və mövcud biznesləri genişləndirməsini ləngitsə də tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi üçün bir sıra addımlar atılmışdır.
- **Rəqabət** ixrac / idxal şirkətlərinin üzləşdiyi tənzimləmə və logistika maneələri ilə məhdudlaşdırılır.
- Bazara daxil olmaqda ciddi **maneələr** bəzi sənaye sektorlarında həddən artıq təmərküzləşməyə təkan verir.
- Qeyri-neft sektorunda **məhsuldarlıqda** artımı aşağı xarici investisiya axınları, insan kapitalı və R&D sahəsində investisiyanın məhdud miqdarda olması əngəlləyir.
- **İxracatın** mürəkkəbliyi və diversifikasiyası aşağıdır.
- **Əmək bazarında** çətinliklər qeyri-formal əməyin yüksək səviyyəsi, bacarıq uyğunsuzluğu və zəif peşə təhsili sistemini əhatə edir.
- Zəif inkişaf etmiş maliyyə sektoru qeyri-neft sektorunda xüsusən də KOS-lar üçün bizneslərin **maliyyə vəsaitlərinə çıxışını** məhdudlaşdırır.
- **İnnovasiyanı** universitet və bizneslər arasında qeyri – səmərəli əməkdaşlıq və tələb olunan bacarıqların olmaması əngəlləyir.

**Biznesi Həyata keçirməyin asanlığı**
*190 ölkə arasında, 2019*




*Mənbə: Dünya Bankı – Biznesi həyata keçirməyin asanlığı*

### Yaxşı idarə olunan (10-dan 5,8)

- **Dövlət idarəçiliyində** siyasətin həyata keçirilməsinə dəstək üçün hesabatlı və effektli institutlar, şəffaf siyasət və effektli institusional potensial çatışmır.
- Məhkəmələrin məhdud effektivliyi və effektli icra mexanizmlərinin olması **qanunun aliliyi** sahəsində çətinliklər törədir. İslahat aparılmamış **vergi inzibatçılığı** proqnozlaşdırılmayan vergitutmaya səbəb olur.
- **Qeyri - formallıq** biznes mühitindəki əsas çətinliklərdən biridir.
- Orqanların struktur və funksiyası, şəffaflıq və açıqlama standartları və daxili nəzarət tədbirlərindəki çatışmazlıqlar **korporativ idarəetməni** zəiflədir.
- Aşağı **korrupsiya** qavrama sıralamaları investor inamını aşağı salır.

**Dünya İdarəetmə Göstəriciləri**
*2017*




*Mənbə: Dünya Bankı, Dünya İdarəetmə Göstəriciləri*

### Yaşıl (10-dan 5,2)

- **Bərpa olunan enerjidən** istifadə səviyyəsi aşağıdır, külək, günəş və kiçik su enerji mənbələrindən istifadə edilməmiş potensial mövcuddur.
- Bərpa olunan enerji növlərinin inkişafına dəstək üçün **siyasət və qanunvericilik çərçivəsi** çatışmır.
- Enerjidən istifadənin yaşayış / kommersiya binaları və nəqliyyat sektorunda yüksək olması **enerji səmərəliliyinin** (ES) yüksəldilməsi üçün ciddi artım imkanlarının olduğunu göstərir.
- **Enerji** istehsalı, paylanması və ötürülməsi sistemlərinin ES hədəflərinə nail olmaq və səmt İXQ emissiyalarını azaltmaq üçün modernizasiya tələb edir.
- Kənd yerləri, ikinci və üçüncü səviyyəli şəhərlərdə su emalı və bərk tullantıların idarə edilməsi sahəsində **xidmət aşağı səviyyədədir**.
- Hava və dəniz suyunun **çirklənməsi** ciddi problemlərə səbəb olur

**Elektrik İstehsalı (QvS)**
*2016*




*Mənbə: Beynəlxalq Enerji Agentliyi*

1. *Daha geniş təfərrüatlar üçün AYİB Ölkə Diqnostikası-na baxın. 1-10 miqyasında ölçülmüş ilkin keçid balları. Burada 10 metodologiya yekunlaşanda baş verəcək dəyişikliyə əsasən ən yüksək göstəricini ifadə edir.*

# 2. İqtisadi Kontekst

## 2.2 . Keçidin əsas çətinlikləri

European Bank
for Reconstruction and Development

### İnklüzivlik (10-dan 5,0)

- Geniş yayılmış **həssas məşğulluq** və **qeyri-formallıq** inklüziv artıma çətinlik törədir.
- **Formal məşğulluq** imkanlarında regionlararası uyğunsuzluqlar böyükdür.
- Əmək bazarında **gender boşluğu** nəzərəçarpan səviyyədədir: qadınlar daha aşağı əmək iştirak dərəcələri, yüksək işsizlik səviyyəsi, yüksək həssas məşğulluq, əməyin ödənişində gender əsaslı böyük fərqlər, yüksək səviyyəli vəzifələrdə aşağı təmsilçilik, şirkət sahibliyində iştirak ehtimalının çox aşağı olması və qadın sahibkarlığının aşağı dərəcələrinin təsirinə məruz qalır.
- **Gənc sahibkarların** öz bizneslərini qurmaq üçün maliyyə vəsaitləri və təlimlərə çıxışı zəifdir.
- **Təhsil sistemi,** əmək bazarının ehtiyaclarını, xüsusilə də yüksək əlavə dəyər yaradan şirkətlərin ehtiyaclarını ödəmir.

### Dayanıqlı (10-dan 4,0)

- **Bankçılıq sektoru** zəif də olsa, yaxşılaşan kapitallaşma, yüksək lakin azalan dollarlaşma, yüksək ÜK səviyyəsi, valyuta uyğunsuzluqları və idarəetmə standartlarından əziyyət çəkir.
- Bankçılıq sisteminin restrukturizasiyası natamamdır və sistem əhəmiyyətli **dövlət bankının** özəlləşdirilməsi dövlətin şərti öhdəliklərinin azaldılması üçün mühümdür.
- **Kredit nüfuzetməsi** regional ölkələrlə müqayisədə aşağıdır.
- **Resurs sektorundan** asılılıq iqtisadiyyatı qlobal neft qiymətlərində dəyişkənliyə məruz qoyub iqtisadi diversifikasiyanı ləngidir.
- Yerli **enerji sistemində** dövlətin böyük dərəcədə iştirakı qeyri-səmərəliliklərə təkan verir.
- Enerji **tarifləri** xərcləri düzgün əks etdirmir. Yenicə yaradılımş **enerji tənzimləyicisinin** potensialının ciddi şəkildə gücləndirilməsinə ehtiyac var.

### Birləşmiş (10-dan 6,0)

- **Beynəlxalq ticarətə** açıqlıq yaxşılaşsa da bəzi sahələrlə müqayisədə geri qalır.
- Xarici **inteqrasiya** potensialını yüksək xərclər və ölkələrarası ticarət üçün tələb edilən vaxt ləngidir.
- BXİ və portfel **investisiya** axınları aşağı səviyyədədir.
- Ölkələrarası ticarəti beynəlxalq göndərişlər, logistikanın keyfiyyəti və səriştəlilik, izləmə, təqib və vaxta riayətetmə də daxil olmaqla, aşağı **logistika** xidməti əngəlləyir.
- Şərq-Qərb və Şimal-Cənub **nəqliyyat dəhlizlərində** qalan boşluqları aradan qaldırmaq lazımdır.
- Əsas infrastruktur təminatı sahəsindəki **coğrafi uyğunsuzluqlar** nəzərəçarpandır.
- **Dəmir yolu sektoruna** ciddi investisiya qoyuluşları tələb olunur

**Həssas məşğulluğun üstünlük təşkil etməsi**
*Cəmi məşğulluğun faizi, 2018*




*Mənbə: BƏT məlumatları əsasında Dünya Bankının hesablamaları*

**Bank sektorunun kreditləri**
*ÜDM-in faizi, 2018*




*Mənbə: Milli statistika orqanları və mərkəzi banklar*

**Ticarətin açıqlığı**
*İxrac + idxal ÜDM faizi kimi, 2017*




*Mənbə: Dünya Bankının Ümumdünya İnkişaf Göstəriciləri, AYİB hesablamaları*

# 3. Hökümətin üstünlük verdiyi məsələlər və Maraqlı tərəflərin cəlb edilməsi

European Bank
for Reconstruction and Development

## 3.1. Hökumətin İslahat Prioritetləri

Hökumətin **Milli İqtisadiyyat və İqtisadiyyatın Mühüm Sektorlarına dair Yol xəritələri** qısa (2020-ci ilədək), orta (2025-ci ilədək) və uzunmüddətli (2025-ci ildən sonra) perspektivlərdə qarşıya qoyulmuş prioritetləri əks etdirir. İqtisadiyyatın daha çox əlavə dəyərə yaradan qeyri-neft və özəl sektorla bağlı fəaliyyət istiqamətində yenidən tarazlaşdırılması kimi ümdə məqsədlərlə strateji hədəflər aşağıdakıları əhatə edir:

- **Makroiqtisadi sabitlik**: Üzən mübadilə məzənnələrinə əsaslanan pul siyasəti, neft sektorundan əldə edilən gəlirlərin düşünülmüş idarəçiliyi, proqnozlaşdırıla bilən iqtisadi siyasət və yerli və xarici maliyyələşdirmə mənbələrinin optimallaşdırılmasına əsaslanan monetar siyasət.
- **Məhsuldarlığa əsaslanan artım:** Dinamik bazar iqtisasdiyyatı üçün əsas olaraq, artan özəl investisiyalar, texnologiya yönümlü sektorlara keçid, yaxşılaşdırılmış DMT işi və özəlləşdirmələri.
- **İnsan resurslarının inkişafı və iqtisadi inklüzivlik:** Əmək bazarında bacarıqların inkişafı və bərabər imkanlar, cəmiyyətin bütün təbəqələri üçün yüksək keyfiyyətli səhiyyə xidməti və təhsilin təminatı, planlaşdırılmış urbanizasiya vasitəsilə əhalinin rifah halının yaxşılaşdırılması.
- **Biznes mühitində yaxşılaşdırmalar:** İnvestorların inamını artırmaq üçün məhkəmə islahatları və gücləndirilmiş qanunun aliliyi; təkmilləşdirilmiş qanunvericilik və onun icrası; BXİ (Birbaşa Xarici İnvestisiya) cəlb etmək və genişləndirməni stimullaşdırmaq məqsədilə bazarın liberallaşdırılması və azad rəqabət.
- **Təkmilləşdirilmiş və inteqrasiya edilmiş nəqliyyat infrastrukturu:** İxracatı artırmaq və nəqliyyat xərclərini aşağı salmaq üçün coğrafi mövqedən bəhrələnmə; beynəlxalq standart və sertifikatların əldə edilməsi, regionlarda logistika mərkəzlərinin inkişafı.
- Neft-qaz, aqrobiznes, KOS, ağır sənaye / maşınqayırma, turizm, logistika / ticarət, mənzil təminatı, peşə təhsili, maliyyə xidmətləri, İKT və kommunal xidmətlər sahəsində **sektora aid yol xəritələri** bu iqtisadiyyat miqyaslı məqsədləri xüsusi fəaliyyət planlarına çevirir.

## 3.2. AYİB-in Səlahiyyətli orqanlarla əsasən razılaşdırılmış İslahat Sahələri

- Kiçik bizneslər üçün biznes və əməliyyat bacarıqları da daxil olmaqla, gücləndirilmiş **qeyri-neft özəl sektoru**.
- **DMT-ların yaxşılaşdırılmış kommersiya fəaliyyəti** və korporativ idarəetmə sahəsində təkmilləşdirmələr.
- O cümlədən KOS dəstəyi, mikromaliyyələşdirmə və innovasiyalı texnologiyalar vasitəsilə **gənclər, qadınlar və zəif inkişaf etmiş regionların maliyyə və iqtisadi inklüzivliyinin artırılması.**
- Yerli valyuta istiqraz bazarı da daxil olmaqla, **pul və kapital bazarlarının** inkişafına dəstək.
- Bərpa olunan enerji növləri və enerji səmərəliliyi üçün normativ dəstək də daxil olmaqla, yaxşılaşdırılmış **enerji səmərəliliyi və yaşıl iqtisadiyyat.**

## 3.3. Vətəndaş Cəmiyyəti üzvlərinin AYİB-ə Mühüm Mesajları

- Bankın Azərbaycandakı fəaliyyəti siyasi, sosial və idarəçilik risklərini əhatəli şəkildə nəzərə almalıdır.
- Layihə səviyyəsində daha ciddi araşdırmanın aparılması və maraqlı tərəflərin daha yaxından cəlb edilməsi tövsiyyə olunur.
- Bankın iqtisadiyyatın diversifikasiyası və KOS inkişafına dəstəyi alqışlanır.
- AYİB hökumət (məs, HSŞT-də) və özəl sektorla vətəndaş cəmiyyəti təşkilatlarının faydalı dialoquna şərait yaratmalıdır.
- AYİB müstəqil vətəndaş cəmiyyəti təşkilatlarının sərbəst fəaliyyətinin qarşısında duran ciddi sınaqlar, söz / birləşmə / toplaşma azadlıqları ilə bağlı narahatlıqlar, əsas hüquq və azadlıqlara hörmət; məhdudlaşdırıcı siyasi sistemlə bağlı ümumi narahatlıqlar.
- Məhkəmələrin müstəqilliyini gücləndirmək üçün islahatların aparılmasına və vətəndaşların hüquqi təmsilçilik/yardıma məhdud çıxışlarını yaxşılaşdırmaq üçün islahatlara ehtiyac var. Cinayət hüquq sisteminin fəaliyyəti və vəkillərin Vəkillər Kollegiyası üzvlüyündən xaric edilməsi ilə bağlı narahatlıqlar mövcudur.
- Böyük korrupsiya və şəffaflığın qeyri-kafi səviyyəsi kimi problemlər, xüsusilə hasilat sektorunda və dövlət satınalmaları sahəsində qalmaqdadır.

# 4. Azərbaycanın Ölkə üzrə Strateji Prioritetlərinin Müəyyənləşdirilməsi

European Bank
for Reconstruction and Development

| Nələri dəyişmək lazımdır? *(Bənd 2)* | Bunu dəyişmək mümkündürmü? *(Bənd 3)* | Bank nələr edə bilər? *(Bənd 4)* | Strateji Prioritetlər (2019-2024) | Biz 2024-cü ildə Nələri Görmək İstəyirik? |
|---|---|---|---|---|
| • Məhsuldarlığın aşağı olduğu kortəbii kənd təsərrüfatı və xidmət sektorları ilə yanaşı aşağı iqtisadi şaxələndirmə.<br>• İxracatın aşağı səviyyəli müxtəlifliyi və diversifikasiyası.<br>• Xüsusilə də KOS-lar üçün qeyri-neft sektoru üzrə maliyyə vəsaitlərinə çıxışın qarşısında duran ciddi maneələr.<br>• Korporativ sektorda biznes bacarıqları və standartlarının çatışmazlığı; zəif korporativ idarəetmə.<br>• Qeyri-formallığın yüksək səviyyələri və regionlararası fərqlər.<br>• Beynəlxalq göndərişlər, logistikanın keyfiyyəti, izləmə, təqib və vaxt müddətləri kimi sahələr də daxil olmaqla, zəif logistika xidməti.<br>• Strateji sektorlarda Dövlət Müəssisələrinin üstünlüyü. | • Özəl sektorda artımın və diversifikasiyanın artırılması üçün iqtisadi islahatlar imkanı (2016 Strateji İqtisadi Yol xəritələri).<br>• Maliyyə sektorunun bərpası KOS artımını dəstəkləmək üçün imkanlar təmin edir.<br>• İqtisadi inklüzivlik üçün strateji prioritet olaraq hökumətin müəyyən etdiyi aqrobiznes sektoru.<br>• Hökumətin bölgələrdə logistika mərkəzlərinin inkişafına diqqəti; Ələt limanı və Azad Ticarət Zonasının (ATZ) davamlı inkişafı.<br>• Hökumətin enerji və dəmir yolu sektorlarında özəlləşdirmə (məs, ABB) və islahat layihələri üçün Dövlət Müəssisələrinin seçiminə hazırlıq planları. | • Səlahiyyətli orqanların imzalaması şərtilə iqtisadi diversifikasiya səyləri üçün TƏ vəsaiti.<br>• KOS-lar və korporasiyaların dəstəklənməsi (kredit xətləri (o cümlədən AZAFF), məsləhət şəbəkəsi, YV) üçün tam uyğunlaşdırılmış məhsullar.<br>• Korporativ və biznes bacarıqlarının artımına (DB, KBM) kömək üçün effektiv vasitələr və korporativ idarəetmənin gücləndirilməsi sahəsində təcrübə.<br>• Logistik təkmilləşdirməyə dəstək üçün sınanmış təcrübə.<br>• Dövlət Müəssisələrinin kommersiyalaşdırılması və / ya təkmil korporativ idarəetmə həmçinin PSP-yə (məs. İLHK) dəstək olaraq ciddi böyük iş təcrübəsi.<br>• Bankın fəaliyyət göstərdiyi bölgələrdə dəmir yolunda islahatlar üzrə böyük təcrübə. | *Rəqabət və Qabaqcıl İdarəetmənin Dəstəklənməsi yolu ilə İqtisadiyyatın Diversifikasiyasının Gücləndirilməsi* | • Təkmil əməliyyat standartları və biznes bacarıqları vasitəsilə güclü dəyər zəncirləri və qeyri-neft sektoru əlaqələri, regional dəyər zəncirlərində daha yüksək inteqrasiya<br>• Az təminatlı seqmentlər üçün maliyyə və sahibkarlığa daha böyük çıxış<br>• Biznesin həyata keçirilməsi və özəl sektorun iştirakı üçün artan rəqabət və bərabər imkanlar |
| • Kövrək bank sektoru (zəif sektor kapitallaşması və korporativ idarəetmə, xarici valyutada kreditləşməvə ÜK-lərin yüksək səviyyəsi).<br>• Zəif idarəetmə ilə bank sektorunda nəzərəçarpan, lakin azalmaqda olan dövlət üstünlüyü.<br>• Maliyyə vəsaitlərinə müxtəlif çıxış vasitələrinin yoxluğu ilə səciyyələnən bəsit maliyyə sistemi. | • Hökumətin mühüm prioriteti kimi maliyyə sektorunda islahat.<br>• Səlahiyyətli orqanların prioritet kimi müəyyən etdiyi Azərbaycan Beynəlxalq Bankının yenidən qurulması və özəlləşdirilməsi.<br>• Azərbaycan Kiçik və Orta Sahibkarlıq müəssisələri üçün Yerli Valyuta Çərçivəsinə yaxın tarixdə qoşulmuşdur.<br>• Bankçılıq sektorunun asta, lakin sabit artımı müvəkkil bank kreditləşdirməsi və TMP-nin bərpası imkanlarına yol açır. | • Bankçılıq sektorunun gücləndirilməsi və yenidən qurulması sahəsində mühüm təcrübə.<br>• Bankçılıq sektorunda korporativ idarəetmənin təkmilləşdirilməsi sahəsində təcrübə.<br>• Kapital bazarların inkişafı sahəsində böyük iş təcrübəsi.<br>• Az təminatlı seqmentlərin kreditləşdirilməsini stimullaşdırmaq məqsədilə xüsusi məhsulların geniş çeşidi. | *Maliyyə Bazarlarının İnkişafı yolu ilə Dayanıqlılığın Artırılması* | • Bankçılıq sektorunda kapitallaşdırma, dayanıqlı maliyyə strukturu və ciddi risk idarəetməsi də daxil olmaqla, maliyyə sektorunun gücləndirilmiş dayanıqlılığı<br>• Qeyri – bank maliyyə məhsul və xidmətlərinin artanmüxtəlifliyi |
| • Enerji mənbələrində enerji diversifikasiyası və bərpaolunan enerji payının aşağı səviyyələri (0,4%).<br>• Bərpaolunan enerjinin tənzimlənməməsi.<br>• Köhnə enerji hasilatı (o cümlədən qəsəbələrə istilik təminatı), paylama və ötürmə sistemləri.<br>• Yaşayış / kommersiya binaları və nəqliyyat sektorunda enerjidən yüksək istifadə.<br>• Yerli enerji sistemində dövlətin yüksək iştirakı.<br>• Xüsusən də kənd yerlərində içməli sulara çıxışın, bərk tullantıların atılmasının qeyri-qənaətbəxşliyi. | • Hökumətin COP21 üzrə MMÖ-ləri çatdırma öhdəliyi.<br>• Bərpa olunan enerjinin tənzimlənmə çərçivəsi işlənib hazırlanmaqdadır.<br>• Külək, günəş və su enerjisindən rəqabətli qiymətə Bərpaolunan Enerjinin istehsal imkanı.<br>• Yaşayış və kommersiya binalarında mühüm enerji səmərəliliyi potensialı<br>• Bərk tullantılara dair milli strategiya işlənib hazırlanmaqdadır.<br>• Xüsusən də Bakı və böyük şəhələrdə artan Texniki Xidməti Yoxlama imkanları. | • İnnovativ yaşıl texnologiyaların inkişafı sahəsində AYİB təcrübəsi (FINTECC).<br>• Bərpa olunan enerji növləri üçün tənzimləmə və institusional çərçivə sahəsində təcrübə.<br>• YİK maliyyələşdirməsi üçün xüsusi məhsullar (məs, xüsusi kredit xətləri, Yaşıl Şəhərlər çərçivəsi vasitəsilə).<br>• AYİB şəbəkələr də daxil olmaqla, enerjiyə qoşulmanı maliyyələşdirə bilər.<br>• ESP-yə çıxış imkanı ilə birlikdə xüsusi ekologiya və resurslardan səmərəli istifadə hədəfləri ilə MEI sahəsində ciddi təcrübə | *Yaşıl İqtisadiyyata Keçid və Regional Qoşulmanın Dəstəklənməsi* | • Yüksək bərpaolunan enerji tutumu, daha şaxələndirilmiş enerji kombinasiyası və enerji sektorunda özəl sektorun daha geniş iştirakı<br>• Artan enerji səmərəliliyi və qoşulması, resurslardan istifadənin səmərəliliyi<br>• Yaşıl nəqliyyat və bələdiyyə infrastrukturu vasitəsilə az karbon emissiyası |

PUBLIC

# 5. Fəaliyyətlər və Nəticələr Çərçivəsi

European Bank
for Reconstruction and Development

## *Prioritet 1: Rəqabətlilik və Qabaqcıl İdarəetməni Dəstəkləməklə İqtisadi Diversifikasiyanın İnkişafı*

| Mühüm Məqsədlər (Nəticələr) | Fəaliyyətlər (Əldə edilənlər) | Göstəricilərin izlənilməsi |
|---|---|---|
| Təkmil əməliyyat standartları, biznes bacarıqları və regional dəyər zəncirlərində daha böyük inteqrasiya yolu ilə güclü dəyər zəncirləri və qeyri-neft sektoru əlaqələri | • Aqrobiznes, istehsal – xidmətlər, əmlak və turizm, enerji və nəqliyyat, habelə KOS-lar üçün əməliyyat standartlarında yaxşılaşdırmalara diqqət yetirərək korporasiyalar və KOS-lara birbaşa və dolayı maliyyə və məsləhət xidmətləri.<br>• İnnovativ təcrübə və texnologiyaların əldə edilməsində yerli şirkətlərə dəstək, Azad Ticarət Zonasında olan şirkətlər üçün də daxil olmaqla, birbaşa maliyyələşdirmə və hədəflənmiş uzunmüddətli məsləhət xidmətləri (məs. Blue Ribbon (Mavi Lent)) vasitəsilə genişləndirmə.<br>• Regional dəyər zəncirlərinə diqqət yetirərək BXİ və yerli mühüm investorların, o cümlədən qadınların rəhbərlik etdiyi bizneslərin maliyyələşdirilməsi.<br>• İntermodal həllərə investisiya qoyuluşu da daxil olmaqla, liman və logistika sektorlarında yeni potensialın inkişafına dəstək.<br>• Ticarətin Maliyyələşdirilməsi Proqramının Genişləndirilməsi. | • ÖMQ-lərin təqdim etdiyi KOS kreditlərinin sayı / həcmi<br>• Artan dövriyyəni bildirən KBM müştərilərinin sayı |
| Cəmiyyətin az təminatlı seqmentləri üçün maliyyə vəsaitləri və sahibkarlığa artan çıxış | • “Xanımların Biznesdə İştirakı” proqramının başladılması (maliyyə xidmətlərinə çıxış, maliyyə məsləhət xidmətləri, təlim, qadınların idarə etdiyi KOS-lar şəbəkəsinin qurulması və təlimləndirilməsi).<br>• Yüksək məşğulluq və bacarıqların (biznes bacarıqları da daxil olmaqla) inkişafını hədəfləyən korporativ müştərilərlə birlikdə bacarıqları inkişaf etdirən həllərin işlənib hazırlanması (aqrobiznes, İX turizm sektorları).<br>• Mikromaliyyələşdirmə sektorunun dayanıqlılığı və yerli mikromaliyyələşdirmə operatorları ilə biznes imkanlarının araşdırılması. | • Maliyyə və / ya məsləhət xidmətlərinə çıxışa malik qadınların rəhbərlik etdiyi biznes fəaliyyətləri |
| Biznesin həyata keçirilməsi və özəl sektorun iştirakı üçün artan rəqabət və imkanlar | • Enerji (elektrik), bankçılıq, nəqliyyat və bələdiyyə sektoruna diqqət yetirərək siyasi məsləhət və investisiyalar vasitəsilə DMT kommersiyalaşdırılmasının (maliyyə, əməliyyat və korporativ idarəetmənin təkmilləşdirilməsi) dəstəklənməsi.<br>• Nəqliyyat, bələdiyyə, enerji sektorları, o cümlədən İLHK vəsaitləri vasitəsilə infrastruktur və infrastruktur xidmətlərinə diqqət yetirərək özəl sektorun inkişafına dəstək olunması (məs, Dövlət-Özəl Sektor Tərəfdaşlığı, konsessiyalar vasitəsilə).<br>• Özəlləşdirmə öncəsi investisiyalar, korporativ idarəetmədə təkmilləşdirmələr (məs, enerji və bankçılıq sektoru) vasitəsilə də daxil olmaqla, özəlləşdirmələrə şəraitin yaradılması.<br>• Müstəqil enerji tənzimləyicisi üçün təsisetmə və potensial quruculuğu da daxil olmaqla, enerji bazarında islahatların gücləndirilməsi. | • Kommersiyalaşdırma / yenidənqurmanı icra edən müştərilərin sayı |

**Təsir İndikatoru:** İqtisadi Mürəkkəblik İndeksi (ölkə sıralaması) (Harvard CID)

# 5. Fəaliyyətlər və Nəticələr Çərçivəsi

European Bank
for Reconstruction and Development

## *Prioritet 2: Maliyyə Bazarlarının İnkişafı yolu ilə Dayanıqlılığın Artırılması*

| Mühüm Məqsədlər (Nəticələr) | Fəaliyyətlər (Əldə edilənlər) | Göstəricilərin İzlənilməsi |
|---|---|---|
| Kapitallaşdırma, dayanıqlı maliyyələşdirmə strukturu və bankçılıq sektorunun ciddi risk idarəetmə təcrübələri də daxil olmaqla, maliyyə sektorunun yüksək dayanıqlılığı | • Potensial (ilkin) özəlləşdirmənin maliyyələşdirilməsi və / və ya səhm də daxil olmaqla, Azərbaycan Beynəlxalq Bankında restrukturizasiya və təkmil korporativ idarəetmənin dəstəklənməsi.<br>• Bankın balanslarının restrukturizasiyasına yardım, imkanlar yarandıqca birləşmə və satınalmalarda potensial iştirak vasitəsilə bankçılıq sektorunun konsolidasiyasına dəstək.<br>• Az təminatlı seqment və sahələrin (məs, qadınlar, enerji səmərəliliyi, kiçik miqyaslı aqribiznesə xüsisi diqqət ayırmaqla) kreditləşdirilməsini stimullaşdırmaq üçün risk idarəetməsi və korporativ idarəetməyə diqqət yetirən yardım ilə birlikdə tərəfdaş banklara xüsusi kredit xətləri və risk paylaşma çərçivələrinin təqdim edilməsi.<br>• Maliyyə təşkilatları üçün kənd təsərrüfatının kredit skorinq sisteminin işlənib hazırlanması və tətbiqinə yardım. | • Tərəfdaş maliyyə qurumlarının maliyyə göstəricilərində yaxşılaşma<br>• DÖT-lərin az təminatlı seqmentlərə təqdim etdiyi kreditlərin sayı / həcmi |
| Qeyri-bank maliyyə məhsul və xidmətlərinin artan müxtəlifliyi | • Aqrobiznes və İX-ə diqqət yetirərək qısamüddətli korporativ istiqrazlar, seçilmiş səhmlərdə (birbaşa – Özəl Kapital vəsaitləri) investisiyaların tədqiqi və müvafiq hallarda AYİB investisiya subyektləri və / və ya onun müştərilərinin korporativ istiqrazların İKB-ə (İlkin Kütləvi Buraxılışı) şərait yaradılması.<br>• Aktiv və effektli maliyyə bazarının inkişafına dəstək.<br>• Yerli valyutada maliyyələşdirilmə (o cümlədən istiqrazların buraxılması yolu ilə) və maliyyə riskindən qorunma alətləri üçün tənzimləmə mühitində yaxşılaşmaların dəstəklənməsi.<br>• Yerli maliyyə təşkilat və bazarlarının bərpasından asılı olaraq uzunmüddətli perspektivə faktorinq əməliyyatı, lizinq və sığorta kimi məhsul / seqmentlərdə seçim əsaslı iştirakın nəzərdən keçirilməsi | • Təqdim edilmiş yeni maliyyə bazarı məhsulları / xidmətlərinin sayı.<br>• Beynəlxalq Maliyyə İnstitutlarının istiqraz buraxılışını təşviq etmək üçün hüquqi/tənzimləyici/institusional çərçivələr, pul bazarının yaxşılaşdırılmış likvidliyi və törəmə maliyyə alətlərinin inkişafı. |

**Təsir Göstəricisi:** Bankçılıq sektoru üzrə kapital uyğunsuzluq əmsalı (BVF, Fitch, S&P, mərkəzi banklar, HIS Bazarı)

PUBLIC

# 5. Fəaliyyətlər və Nəticələr Çərçivəsi

European Bank
for Reconstruction and Development

## *Prioritet 3: Yaşıl İqtisadiyyata Keçid və Regional Əlaqəliliyin Dəstəklənməsi*

| Mühüm Məqsədlər (Nəticələr) | Fəaliyyətlər (Əldə edilənlər) | Göstəricilərin İzlənilməsi |
|---|---|---|
| Daha çox bərpa olunan enerji potensialı, daha da şaxələndirilmiş enerji mənbələri, enerji sektorunda özəl sektorun daha böyük iştirakı | • Bərpa olunan enerji layihələrinin (külək, günəş, su və biokütlə) birbaşa və vasitəçi maliyyələşdirilməsi və onların şəbəkəyə qoşulmasının dəstəklənməsi.<br>• İstixana tullantılarının azaldılması, o cümlədən səmt qazı emissiyalarının azaldılmalarını hədəfə alan dayanıqlı investisiya layihələrində investisiya, habelə digər yaşıl texnologiya investisiyalarının tədqiqi, yerli ətraf mühit, sağlamlıq və təhlükəsizlik standart və təcrübələrinin təkmilləşdirilməsi.<br>• Resursların Səmərəliliyi sektoruna özəl sektorun maliyyə və investisiyalarını cəlb etmək üçün bərpaolunan enerjinin tənzimlənmə çərçivəsinin inkişafına dəstək. | • Quraşdırılmış ümumi bərpa olunan enerji (MV)<br>• Aİ-nın 3-cü Enerji Paketinin əsas prinsiplərinə əsalanan müstəqil enerji tənzimləyici qurumu üçün təkmilləşdirilmiş hüquqi / tənzimləyici çərçivə |
| Artan enerji səmərəliliyi və əlaqəliliyi və resurs səmərəliliyi | • KOS-lar, habelə kommersiya və yaşayış sektorlarına diqqət yetirərək tərəfdaş banklar vasitəsilə enerji və resurs səmərəliliyinin təminatı.<br>• Təchizat tərəfdə resurs səmərəliliyinə investisiyaların inkişafı və maliyyələşdirilməsi (məs, qazla işləyən istehsal potensialının modernizasiyası, hasilat dəyər zəncirində daha təmiz və səmərəli texnologiyalar).<br>• Smart sayğac / smart şəbəkə sistemləri, regional qarşılıqlı birləşmə və saxlama həcmi vasitəsi də daxil olmaqla, şəbəkənin modernizasiyasının dəstəklənməsi.<br>• Yüksək enerji əlaqəliliyi, enerji şəbəkəsinin etibarlılığı və beynəlxalq dəhlizlərin dəstəklənməsi.<br>• Toplama, təkrar emal və tullantıdan enerji alınması həlləri də daxil olmaqla, tullantı idarəetmə dövrəsi boyu bərk tullantı sektorunun inkişafının dəstəklənməsi və regional bərk tullantı layihələrinin maliyyələşdirilməsi imkanlarının araşdırılması.<br>• Mərkəzi istilik sistemləri üçün tənzimləmə çərçivəsinə dəstək. | • AYİB-in dəstəklədiyi DÖT-lərin ödədiyi ES və ya Resurs Səmərəliliyi kreditlərinin həcmi<br>• Qənaət edilmiş enerji (QC/il)<br>• Şəbəkə tutumunda artımla ölçülən hədəf infrastruktur şəbəkəsi |
| Daha çox yaşıl enerjini dəstəkləyən nəqliyyat və bələdiyyə infrastrukturu vasitəsilə azaldılmış karbon emissiyaları | • Yaşıl və inteqrasiya edilmiş nəqliyyat həll – xidmətlərinin (o cümlədən texnoloji təkmilləşdirmələrə yardım edən şəhər nəqliyyatı (məs, logistika platforması), yaşıl dəmir yolu və liman komponentlərinin maliyyələşdirilməsinin inkişafı vasitəsilə daha təkmil nəqliyyat əlaqəliliyinin dəstəklənməsi.<br>• Müvafiq hallarda Yaşıl Şəhər Çərçivəsi vasitəsilə və / və ya ESP-dən istifadə edərək $CO_2$ emissiyaları da daxil olmaqla, şəhərlərin ətraf mühitlə bağlı problemlərin öhdəsindən gələ bilmələri üçün dayanıqlı bələdiyyə investisiyalarının stimullaşdırılması (məsələn, mərkəzi istilik sistemi, şəhər nəqliyyatı, enerji səmərəliliyi) | • Ətraf mühit məsələlərinin dəstəklənməsi üçün səfərbər edilmiş və birbaşa maliyyələşdirmə (məs, resurs səmərəliliyi)<br>• Azaldılmış cəmi $CO_2$ (ton/il) |

**Təsir Göstəricisi:** Karbon intensivliyi ($CO_2$/ÜDM) (IEA)

# 6. AYİB Biznes sahələrində Beynəlxalq Tərəfdaşların səlahiyyət ierarxiyasının sxeminin hazırlanması

European Bank
for Reconstruction and Development

| AYİB BİZNES SAHƏLƏRİ | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Sektorlar | | | | | | | | | | | | | | | Əsas Mövzular | | | | | | |
| | | Korporativ | | | | Enerji | | İnfrastruktur | | | | Maliyyə | | | | | Yaşıl iqtisadiyyata keçid | | | İnklüzivlik | | | |
| Göstərici orta investisiya / qrantlar (€m, 2014-2018) | | Aqrobiznes | Ümumi Sənaye | Əmlak və Turizm | İKT | Təbii Sərvətlər | Elektrik enerjisi | Su və Çirkab suyu | Şəhər Nəqliyyatı | Yollar | Dəmir yolları | Bankçılıq | Sığorta və maliyyə xidmətləri | MKOS Maliyyəsi | Özəl investisiya | Kapital Bazarları | Su Səmərəliliyi | Materialların Səmərəliliyi | Dayanıqlı Enerji | Gender | Gənclər | Region | İnvestisiya mühiti |
| AİB (ADB) | 847 | | | | | €P | €P | €P | | € | €P | | | €P | | | | | | €P | | €P | |
| DB | 86 | | | | €P | €P | | €P | | €P | | | | | | | | | | | | €P | |
| AFD | 113* | | | | | | | | | | € | | | | | | | | | | | | |
| İSİB | 47 | | | | | | | | | € | | €P | | | | | | | | | | | |
| QDTB | 26,5 | | € | | | € | | | | | | € | | € | | | | | | | | | |
| AİB (EIB) | 19 | | € | | | | | | | | | € | | € | | | | | | | | | |
| SECO | 17,5 | | | € | | | | €P | | | | € | | € | | P | | | | P | | € | P |
| Aİ | 15,5 | €P | P | | | | | | | | | | | P | | | P | | €P | €P | €P | €P | P |
| IFC | 6 | | | | | | | | | | | € | | € | | | | | | | | | P |
| *AYİB* | 272 | € | € | € | | €P | €P | €P | €P | €P | €P | €P | | € | € | €P | €P | | €P | € | € | € | P |

€ Mühüm investisiya sahəsi P Ciddi siyasi dialoq sahəsi ● Əsasən özəl sektora diqqət ○ Əsasən dövlət sektoruna diqqət

## Gələcək Əməkdaşlıq Sahələri

**Rəqabətə davamlı:**
Qeyri-neft sektorlarında kreditləşdirilə bilən şirkətlərin birgə maliyyələşdirilməsi üçün AİB & IFC ilə tərəfdaşlıq; Aİ, SECO və IFC ilə təkmil investisiya mühiti islahatları, və ADB – Dünya Bankı ilə birlikdə böyük miqyaslı infrastruktur maliyyələşdirilməsi.

**Dayanıqlı:**
ADB, AİB və IFC ilə MKOS kreditləşdirmə çərçivələrinin əlaqələndirilməsi; aqrobiznes sektorunda maliyyə vəsaitlərinə çıxışı yaxşılaşdırmaq üçün Aİ ilə əməkdaşlıq

**Yaşıl:**
Enerji islahatlarının inkişafı, bərk tullantı sistemlərinin yaxşılaşdırılmasına şərait yaradılması və AİB (ADB )– Dünya Bankı ilə birgə məsul təbii sərvət layihələrinə birgə investisiya qoyuluşları

*Qeyd:* Büdcə dəstəyi istisna olmaqla, ictimaiyyətə açıq məlumatlara əsasən BMQ fəaliyyəti. 2014-2018-ci illərdə imzalanmış investisiyaların 5% aşan layihələr kimi müəyyən edilmiş mühüm BMQ investisiyası. *yalnız 2017

# 7. İcranın riskləri və Ətraf mühitə və Sosial sahəyə təsirlərin nəticələri

European Bank for Reconstruction and Development

| Strategiyanın İcrası üçün Risklər | Ehtimal | Təsir |
|---|---|---|
| Bankın özəl sektor fəaliyyətlərinə potensial (mənfi) nüfuzetmələri ilə əlaqədar suverenliklə bağlı fəaliyyətlərə cəlb olunması **imkanının məhdudluğu.** | Yüksək | Yüksək |
| **Siyasi islahatların tərəqqinin qeyri-kafiliyi,** şəffaflıq və idarəetmə problemləri investisiya fəaliyyətlərinə mənfi təsir göstərə bilər. | Orta | Yüksək |
| **Əmtəə qiymətinin dəyişkənliyi** formalaşan bərpanı ləngidə və bank sektorunun birləşdirilməsi / restrukturizasiyasında irəliləyişi məhdudlaşdıra / dayandıra bilər. | Orta | Yüksək |
| **Neft qiymətinin bərpası və / və ya zəif inzibati potensial** islahatların icrasını ləngidə bilər. | Yüksək | Orta |
| **Dəyişkən regional təhlükəsizlik** vəziyyəti investor əminliyinə xələl gətirə bilər. | Orta | Yüksək |
| **Bank sektorunun restrukturizasiyası və kreditləşdirmə pozuntularının** öhdəsindən kifayət qədər gəlinməməsi AYİB-in kreditləşmə həcmlərini azalda bilər. | Orta | Orta |
| **Donor birgə maliyyələşdirməsi və qrant səviyyələrinin kifayət qədər olmaması** mühüm AYİB məhsullarının rəqabətliliyinə mənfi təsir edə bilər. | Aşağı | Orta |

## Ətraf mühitə və Sosial sahəyə təsirlərin nəticələri

- **Ətraf mühit və Sosial Sahəyə Təsirlərin Qiymətləndirilməsi və İdarəçiliyi, Maraqlı Tərəflərin İştirakı:** Layihələrin birbaşa, dolayı və ümumi təsirlərinin düzgün qiymətləndirilməsi və yüngülləşdirilməsi, onların lazımi icra qabiliyyətinə malik olduqlarını təmin etmək üçün müştərilərlə birgə iş. AYİB KSM bilik və təcrübəsinin təkmilləşdirilməsi və tərəfdaş cəlbolmasının yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərəcək.
- **Əmək və İş Şərtləri:** Müştərilərin İR siyasət və əmək təcrübələrinin AYİB PR2 ilə uyğunluğunun təmin edilməsi. AYİB qadınlar, azlıq qrupları və miqrant işçilərə qarşı potensial ayrı-seçkiliyə xüsusi diqqət yetirəcək. Xərclərə qənaət Dövlət Müəssisələrinin özəlləşdirilməsi ilə əlaqəli ola bilər və xüsusi xərclərə qənaət planının olmasını tələb edir.
- **Resurs Səmərəliliyi və Çirklənmələrin Qarşısının alınması və Nəzarət edilməsi:** Mənbədə ayırma və təkrar emalın stimullaşdırılması üçün infrastruktur və sistemlər də daxil olmaqla, tullantısız iqtisadiyyatın və tullantı idarəetmə layihələrinin işlənib hazırlanmasına dəstək.
- **Sağlamlıq və Təhlükəsizlik:** Peşə və ictimai sağlamlıq, təhlükəsizlik mədəniyyəti və təcrübəsinin yaxşılaşdırılması. Yol təhlükəsizliyi nəqliyyat layihələri, müştəri park idarəetməsi üçün prioritet məsələdir və TƏ vəsaitlərini tələb edə bilər.
- **Torpaqların Əldə edilməsi, Məcburi Köçürülmə və İqtisadi Yerdəyişmə:** qanunvericilik AYİB-in İcra Tələbləri ilə tam uzlaşır. AYİB müştəriləri təsirə məruz qalan insanlarla məsləhətləşmə və məlumatların əldə edilməsini yaxşılaşdırmağa təşviq edəcək. Məskunların sahiblik hüquqlarının olmadığı hallarda müştərilərin kompensasiya və yaşayış şəraitinin bərpası verilişinin Bankın tələblərinə uyğun həyata keçirməsi təmin ediləcək.
- **Biomüxtəlifliyin Qorunması və Canlı Təbii Sərvətlərin Dayanıqlı İdarəetməsi:** Bərpa olunan enerji və nəqliyyat infrastruktur layihələri liman inşası halında dəniz canlıları da daxil olmaqla, həssas heyvanat məskənlərinə müdaxilələr vasitəsilə təsir göstərə bilər. Belə təsirlərin qarşısının alınması və ya minimallaşdırılması üçün həssas məkanlarda layihələrin biomüxtəlifliyinin təsirinin ciddi qiymətləndirmələrinin aparılması və zəruri hallarda TƏ təminatı.
- **Mədəni İrs:** Mühüm tərəfdaşların müəyyənləşdirilərək məsləhətləşmələrin aparılması üçün müştərilərlə birgə iş və həssas mədəni irsin mühafizəsi.
- **Maliyyə Vasitəçiləri:** MQ tərəfdaşlarının müvafiq ƏMMS potensialı və risk idarəetmə prosedurlarına malik olmasına təminat
- **Monitorinq və nəzarət:** Ətraf mühit və sosial işin izlənilməsi və Bank portfeli ilə bağlı hüquqi məsələlərin həlli üçün mövcud müştərilərlə iş.

Yüksək | Orta | Aşağı

# 8. Donor Birgə Maliyyələşdirməsinin Qiymətləndirməsi

European Bank
for Reconstruction and Development

## 8.1. Yeni Ölkə Strategiyası Müddəti üçün Qranta olan Ehtiyacların Qiymətləndirilməsi

Qrant maliyyələşdirməsi aşağıdakılara dəstək də daxil olmaqla, Ölkə Strategiyasının strateji hədəflərinə nail olmaq üçün tələb edilir:

- Dövlət müəssisələrinə özəlləşdirilmədən öncə, kommersiyalaşdırılması və yenidən qurulmasına dəstək; DÖT Potensialının Gücləndirilməsi
- Enerji səmərəliliyinin yaxşılaşdırılmasına diqqət yetirməklə infrastruktur qurğuları
- Şərq Tərəfdaşlığının Biznes Tərəfdaşlığında Qadınlar Proqramı vasitəsilə qadınların idarə etdiyi biznes üçün ilk itki riskinə təminat olaraq maliyyə vəsaitləri də daxil olmaqla, ümumi KOS sektoruna yardım;
- Siyasi iştirak və hüquqi islahatlar;
- Artmış özəl sektor iştirakı və müstəqil enerji tənzimləyicisinin potensial quruculuğu da daxil olmaqla, enerji bazarında islahat.

## 8.2. Potensial Qrant Mənbələri

- **Aİ** əsas alətin Şərq Qonşuluğa İnvestisiya siyasətinin olduğu çoxsaylı maliyyə alətləri vasitəsilə qrant vəsaitlərinin çox vacib mənbəyi olaraq qalmaqdadır.
- AYİB-in **Xüsusi Səhmdar Fondu** vacib qrant təminatçısı olaraq qalacaq.
- **«AYİB Kiçik Biznesə Təsir Fondu (SBIF)»** və **«KOS Xüsusi Yerli Maliyyə Fondu»** fondlarının ölkədə KOS inkişafına yardım üçün istifadəsi davam etdiriləcək.
- **AYİB-in İlkin Mərhələdə olan Keçid İqtisadiyyatına Malik Ölkələr fondu** və **Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Partnyorluq fondları** da həmçinin Azərbaycanda fəaliyyət üçün səy göstərəcək.
- Maliyyə sisteminin dayanıqlılığının gücləndirilməsi və özəl firmaların rəqabətliliyinin gücləndirilməsi üçün **ikitərəfli** AYİB hesabları vasitəsilə dəstək.
- AYİB Azərbaycanın özü də daxil olmaqla, **yeni donorlar** və əlavə qrant vəsaitləri cəlb etmək imkanlarını araşdıracaq.

### Seçilmiş Sərfəlilik Göstəriciləri

| | | *AYİB regional persentil sıralaması[1]* |
|---|---|---|
| Adambaşına ÜDM (AQP, cari. $)[2] | 17 493 | 47-ci (CoOs) |
| ODA Ölkə | Bəli | - |
| ODA Ümumi Milli gəlir payı kimi (%)[3] | 0,3 | 16 |
| ODA adambaşına ($ - cari qiymətlər)[3] | 11,71 | 16 |

Mənbələr: [2] BVF (2017), [3] İƏİT (2017)

### Son strategiya ərzində donor maliyyəsi (€m)[4]




** 2018 –ci il məlumatları ilkin məlumatlara əsaslanır*

### Qrant Vəsaitinə olan Ehtiyaclar[5]




*1.Aşağıda təqdim edilən AYİB ölkələrinin payı kimi bildirilmiş persentil sıralaması (ODA göstəriciləri halında ODA CoOs ).*
*4. 2014-2015 TƏ məlumatları 2016-cı ilin mart ayının sonuna Öhdəliklərə əsaslanır (yeni Donor Vəsaitləri Sistemində məlumatların köçürülməsindən əvvəl ən son tarix). 2016- 2017 TƏ məlumatları layihə səviyyəsində 2016 ayırmalarına əsaslanır.*
*5. 2019-cu ildə başlanılmalı olan layihələr üçün bank qruplarının bildirdiyi əməliyyat ehtiyaclarına əsaslanır.*

# ƏLAVƏ

# Əlavə 1 – 1-ci Maddə Kontekstində Siyasi Qiymətləndirmə

Azərbaycanın Bankın Təsis edilməsi dair Sazişinin 1 Maddəsində qeyd edilmiş siyasi prinsipləri əsas tutmaq və tətbiq etmə öhdəliyi bundan əvvəlki Ölkə Strategiyası dövründə, xüsusilə, 2014-2015-ci illərdə beynəlxalq səviyyədə narahatlıq doğurmuşdur. Dövlət orqanları bu yaxınlarda bir neçə müsbət addım atmış və müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq ümumilikdə artmışdır.

Azərbaycanın siyasi sistemi səlahiyyətlərin böyük hissəsinin ölkə prezidentinin əlində cəmləşdiyi mərkəzləşdirilmiş qaydada həyata keçirilməkdə davam etmişdir. 2016-cı ilin 26 sentyabr tarixində aparılmış konstitusiya referendumundan sonra prezident səlahiyyətləri əlavə müddətə uzadılmışdır.

Səlahiyyətlər bölgüsü və əsas hüquq və azadlıqların konstitusiya təminatı mövcuddur. Birləşmiş Millətlər Təşkilatı (BMT), ATƏT və Avropa Şurasının üzvü olaraq, Azərbaycan beynəlxaq öhdəliklərinə riayət etmək məsuliyyətini öz üzərinə götürmüşdür. Aİ – Azərbaycan əlaqələri ötən iki il ərzində yenilənərək intensivləşdirilmişdir. Buraya 1999-cu il Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin əvəzlənməsi üçün yeni hərtərəfli sazişə dair fevral 2017-ci il tarixində danışıqlar və 2018-2020-ci illər üzrə Tərəfdaşlıq Prioritetlərinə dair iyul 2018-ci il tarixli danışıqlar aiddir. Bu yolla Aİ və Azərbaycan insan hüquqları, demokratiya, qanunun aliliyinə hörmət və vətəndaş cəmiyyəti ilə dialoq da daxil olmaqla, ambisiyalı və hərtərəfli əməkdaşlıq və dialoq gündəliyinə dair öhdəliklərini bir daha təsdiq etmişlər.[1] Azərbaycanda 2019-2021-ci illər üzrə Avropa Şurasının yeni Fəaliyyət Planı məhkəmə islahatları, korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə və mülki vətəndaş cəmiyyəti ilə dialoq da daxil olmaqla bir sıra sahələrdə əməkdaşlığın davam etdirilməsinin təmin edilməsi məqsədilə qəbul edilmişdir. 2019-cu ilin mart ayında Azərbaycan xalqına ünvanladığı müraciətində Prezident İlham Əliyev siyasi və məhkəmə sistemində islahatların davam etdiriləcəyini vəd edib.

Bununla belə, ötən Ölkə Strategiyası müddətində müvafiq beynəlxalq təşkilatlar və onların monitorinq orqanları siyasi sistemdə yoxlama və balansların mühafizəsi, demokratiya və qanunun aliliyi, insan hüquqları və əsas azadlıqlara hörmət, ifadə və birləşmə azadlığına hörmət, habelə mülki vətəndaş cəmiyyətinin fəaliyyəti haqqında qanunvericilik sahəsində ciddi narahatlıqların olmasını dilə gətirmişdirlər.[2] Aİ qanunun aliliyi, əsas hüquq və demokratik institutların gücləndirilməsi, habelə mülki vətəndaş cəmiyyəti ilə mənalı fəaliyyətin müstəqil, sabit və inkişaf edən ölkə üçün mühüm olmasını xüsusi olaraq qeyd etmişdir.[3] Məhkəmələrin müstəqilliyinin gücləndirilməsi üçün göstərilən son səylər alqışlansa da, daha qətiyyətli və effektli tədbirlər tələb olunur. Korrupsiya ilə mübarizə səlahiyyətli orqanlar üçün müəyyən edilmiş prioritet olsa da və onu azaltmaq üçün müəyyən tədbirlər görülsə də ciddi problem olaraq qalmaqdadır.

Azərbaycan Avropa və Asiyanı birləşdirən vacib kəsişmə nöqtələrində yerləşir. O, enerji resurslarının təchizatının şaxələndirilməsi sahəsində və nəqliyyat qovşağı kimi mühüm rol oynayır. Lakin ölkənin regional və geosiyasi konteksti mürəkkəbdir. Ermənistanla Dağılıq Qarabağla bağlı münaqişə həll edilməmiş qalmaqdadır və Fransa, Rusiya və Birləşmiş Ştatların birgə sədrlik etdiyi ATƏT-in Minsk Qrupunun beynəlxalq vasitəçilik səyləri davam etməkdədir.

*1. Avropanın Xaricdə Fəaliyyət Xidməti (EEAS): 14 may 2018-ci ildə Azərbayxanın Xarici İşlər Naziri ilə Federika Moqerinin görüşü; və 11 iyul 2018-ci il tarixində Aİ və Azərbaycan arasında Tərəfdaşlıq Prioritetlərinə dair pres relizlər.*
*2. Məsələn, BMT-nin İnsan Hüquqları üzrə Komitəsi (BMT İHK): BMT-nin İnsan Hüquqlarına dair Ali Komissiyası Ofisinin hesabatı 16 mart 2018; Avropa Komissiyası və İttifaqın Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Təmsilçisi (EC/HR): Birgə Heyətin İşçi Sənədi, müvafiq ENP çərçivəsində AB – Azərbaycan əlaqələrinə dair hesabat, Brüssel, 11 mart 2019 və 19 dekabr 2017; Avropa Birliyi Şurası; 2016-cı ildə Dünyada İnsan Hüquqları və Demokratiyaya Aİ-nin İllik Hesabatı, Lüksemburq, 16 oktyabr 2017, səh. 70-73; Avropa Şurasının Parlament Assambleyası (AŞPA): «Azərbaycanda demokratik institutların fəaliyyəti»nə dair 11 oktyabr 2017-ci il tarixli 2184 saylı Qərar (2017) və onu müşaiyət edən hesabat.*
*3. Aİ – Azərbaycan Əməkdaşlıq Şurası: Əsas nəticələr, 9 fevral 2018.*

***Azad Seçkilər və Təmsilçi Hökumət***

*Azad, ədalətli və rəqabətli seçkilər*

Konstitusiyada Azərbaycan xalqının sərbəst, gizli və şəxsi səsvermə yolu ilə universal, bərabər və birbaşa seçkilər əsasında seçilmiş öz təmsilçiləri vasitəsilə idarəetmə formalarını yaratmaq üçün suveren hüquqa malik olmaları əksini tapmışdır. 1991-ci ildə müstəqilliyini əldə edəndən bəri beynəlxalq müşahidəçi missiyaları ölkənin seçki proseslərində çatışmazlıqlar aşkar etmişdir.

Son prezident seçkisi 2018-ci ilin aprel ayında keçirilmişdir. ATƏT/DTİHB rəhbərlik etdiyi Seçki Müşahidə Missiyası 11 aprel 2018-ci il tarixində keçirilmiş erkən seçkilərin "məhdudlaşdırıcı siyasi mühitdə, həqiqi demokratik seçkilərin keçirilməsi üçün əsas şərt olan əsas hüquq və azadlıqları əngəlləyən hüquqi çərçivədə baş tutmasını bildirmişdir. Bu fonda və mətbuat azadlığı da daxil olmaqla, plüralizmin yoxluğu şəraitində belə seçkilər həqiqi rəqabət mühiti olmadan baş tutmuşdur". Səlahiyyətli orqanların əməkdaşlıq etmələri və seçki inzibatçılığının resurslarla tam təminatı və seçki səmərəliliyinə hazır olmasına baxmayaraq, beynəlxalq müşahidəçilər məcburi prosedurlara geniş miqyaslı riayətetməmə, şəffaflığın olmaması və seçki günündə seçki qutusuna bir seçici tərəfindən birdən artıq seçki bülleteninin atılması kimi çoxsaylı ciddi qanun pozuntularının olmasını bildirmişlər.[4] Hazırki prezident İlham Əliyev digər qeydiyyatdan keçmiş yeddi namizədlə rəqabət aparırdı. Bir neçə müxalifət partiyası de fakto rəqabət mühitinin yoxluğuna istinad edərək seçkiləri boykot etdikləri halda digərləri erkən seçki tarixinin mənalı iştiraka təminat vermədiyini bildirərək öz namizədlərini irəli sürməkdən imtina etmişlər.[5]

Sonuncu parlament seçkiləri 2015-ci ilin noyabr ayında baş turdu. Səlahiyyətli orqanların müşahidəçilərin sayına tətbiq etdiyi məhdudiyyətə görə, ATƏT/DTİHB öz müşahidə missiyasını göndərməkdən imtina etdiyindən seçkiləri tam qiymətləndirmək mümkün olmamışdır.[6]

*Səlahiyyətlər bölgüsü və effektli yoxlama və balanslar*

Azərbaycan Respublikasının Konstitusiyası dövlət səlahiyyətinin səlahiyyət bölgüsü prinsipinə əsaslandığını bəyan edir.

Azərbaycanda prezident idarəetmə üsulu hökm sürür. İcra səlahiyyəti prezidentə məxsus olsa da, o, qanunvericilik və ədliyyə ilə bağlı geniş konstitusiya hüquqlarından istifadə edir. Prezident Baş nazir və Nazirlər Kabinetinin üzvlərini təyin edir və vəzifədən azad edir, mərkəzi və yerli icra orqanlarını yaradır. O, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və Apelyasiya Məhkəmələrinin parlament tərəfindən təsdiq edilməsi üçün təklif edərək başqa məhkəmələrin hakimlərini təyin edir. Parlamentin razılığı ilə prezident Baş prokuroru da təyin edir və vəzifəsindən azad edir.

Qanunvericilik səlahiyyəti tək mandatlı seçicilərdən ibarət majoritar sistem üzrə beş illik müddətə seçilən 125 deputatdan ibarət bir palatalı parlament olan *Milli Məclisdə* cəmləşmişdir. Prezidentin *Yeni Azərbaycan Partiyası* qanunvericilik və siyasi sistemdə hakim mövqeyə malikdir.

*4. ATƏT/DTİHB: Azərbaycan Respublikası, erkən Prezident Seçkisi, 11 aprel 2018, Yekun Hesabat, Varşava, 18 iyul 2018, səh. 1.*
*5. Ibid.*
*6. ATƏT/DTİHB: "Azərbaycanın tətbiq etdiyi məhdudiyyətlər parlament seçkilərini müşahidə missiyasının ləğvinə məcbur edir", Bəyanat, 11 sentyabr 2015.*

26 sentyabr 2016-cı il tarixində keçirilmiş konstitusiya islahatı prezident səlahiyyətlərini genişləndirmişdir. Konstitusiyanın 29-cu maddəsinə düzəliş edilmişdir (rəsmi bildirilən 70% seçici iştirakı ilə seçicilərin 90-95% tərəfindən təsdiqlənmişdir). Düzəlişlər prezidentin səlahiyyət müddətinin beş ildən yeddi ilədək uzadılması, ona parlamentin buraxılması kimi əlavə səlahiyyətlər, yeni birinci vitse-prezident və vitse-prezident vəzifələrinin yaradılması, vəzifəyə təyin edilməsi və azad edilməsi səlahiyyətlərinin verilməsini daxil etmişdir. Avropa Şurasının Venesiya Komissiyası prezidentin siyasi hesabatlılığını azaldan və parlamenti daha da zəiflədən amillər kimi nəzərdən keçirərək, təklif edilən institusional dəyişiklikləri mənfi qiymətləndirmişdir. Aİ Azərbaycanı düzəlişlərin icrası prosesində Venesiya Komissiyasının aşkar etdiyi faktları nəzərə almağa səsləmişdir.[7]

*Seçilmiş rəsmiləri idarə etmək səlahiyyəti*
Azərbaycanda əsas siyasi qərarverən birbaşa milli seçkilər yolu ilə seçilən prezidentdir. Prezident İlham Əliyev 2003-cü ilin oktyabr ayından bəri prezident səlahiyyətlərini icra etməkdədir və hakimiyyətə gələndən bəri 2008, 2013 və 2018-ci illərdə üç dəfə yenidən prezident seçilmişdir. Hərbi qüvvələr nəzarət altında olub ölkənin siyasi qərarvermə prosesində həlledici rola malik deyil. Hüquq-mühafizə və təhlükəsizlik xidmətləri prezidentə hesabat verir. Ölkədə böyük bizneslər vacib rol oynasa da seçilmiş rəsmilərə təsir etmək üçün əlavə səlahiyyətlərə malik deyil.

***Mülki vətəndaş cəmiyyəti, Kütləvi Mətbuat və İştirak***
*Mülki vətəndaş cəmiyyətinin miqyası və müstəqilliyi*
Rəsmi məlumatlara görə, ölkədə qeydiyyatdan keçmiş mülki vətəndaş cəmiyyəti təşkilatlarının (VCT), o cümlədən, qeyri-hökumət təşkilatlarının (QHT-lər) sayı 4300-dən artıqdır.

Lakin bildirilir ki, əvvəlki Ölkə Strategiyasının qəbul edilməsindən bəri VCT fəaliyyəti üçün qanunvericilik mühiti qeydiyyat, maliyyələşdirmə və hesabatvermə tələbləri, onların pozuntusuna görə ciddi cərimələr də daxil olmaqla, daha da məhdudlaşdırıcı olmuşdur. 2013-2014-cü illərdə səlahiyyətli orqanların icra etdiyi milli və beynəlxalq VCT-ləri tənzimləyən qanunlara tətbiq edilmiş və Avropa Şurasının Venesiya Komissiyasının mənfi qiymətləndirdiyi məhdudlaşdırıcı düzəlişlərdən sonra[8] 2015-ci ildə yeni mürəkkəb qaydalar tətbiq edilərək QHT-lərin yerli və xarici qrantları Ədliyyə Nazirliyində qeydiyyatdan keçirməsi, xarici donorların Ədliyyə Nazirliyi tərəfindən təsdiqlənməsi və Maliyyə Nazirliyindən alınan hər qrant üçün təsdiqin əldə edilməsi tələbi qoyulmuşdur. Belə əməliyyat mühitində məhdudiyyət və vəsaitlərə çıxışda azalma, xüsusən də xarici mənbələrdən vəsaitlərin alınmasında azalma VCT-lərin öz fəaliyyətlərini dayandırması, azaltması və ya xaricə köçürməsinə səbəb olmuşdur.

Azərbaycan Prezidentinin qərarına əsasən QHT-lərə Dövlət Dəstəyi Şurasına VCT-lərə maliyyə yardımı təmin emtək və mülki vətəndaş cəmiyyətləri ilə əməkdaşlığı genişləndirmək tapşırılmışdır. Bu Şura 2017-ci ildə 480-dən artıq QHT layihəsini maliyyələşdirmişdir. Lakin müstəqil VCT-lər arasında ümumi rəy ondan ibarətdir ki, Şura hökuməti dəstəkləyən təşkilatlara üstünlük verir.[9]

*7. Avropa Şurasının Venesiya Komissiyası (VK): Azərbaycan. Konstitusiya düzəlişlərinə dair rəy, 26 sentyabr 2016-cı il tarixli Referenduma təqdim edilmişdir. Venesiya, 14-15 oktyabr 2016, səh. 18; Aİ: HR/VP-nin sözçüsünün bəyanatı, 27 sentyabr 2016.*
*8. VK: Azərbaycan Respublikasının düzəliş etdiyi qeyri – hökumət təşkilatları haqqında Qanuna dair rəy (dövlət birlikləri və fondları), Strasburq, 15 dekabr 2014, səh. 20-21.*
*9. Dünya Bankı: Azərbaycanın Sistematik Ölkə Diaqnostikası, iyun 2015,səh. 65.*

# Əlavə 1 – 1-ci Maddə Kontekstində Siyasi Qiymətləndirmə

Beynəlxalq təşkilatlar, xüsusən də BMT və Avropa Şurası cinayət təqibi və VCT rəhbərlərinin saxlanması, səfər qadağaları və onların bank hesablarının bağlanması da daxil olmaqla, müstəqil VCT-lərin üçün fəaliyyət mühitinin ümumi pisləşməsinə dair narahatlıqlarını ifadə etmişlər. [10]

2016-cı ilin may ayında Açıq Hökumət Tərəfdaşlığı (AHT) təşəbbüsü Azərbaycanı QHT-lər üçün əməliyyat mühitinə mövcud məhdudiyyətlər səbəbindən qeyri-fəal üzv kimi göstərmişdir.[11] 2017-ci ilin mart ayında Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü Şurası Azərbaycanın Şuranın 2016-cı ilin oktyabr ayında tətbiq etdiyi mülki vətəndaş cəmiyyəti məkanı ilə bağlı islahedici tələblərə tam cavab verməməsi əsasları ilə ölkənin üzvlüyünə son qoymuşdur."[12] Müvafiq olaraq Azərbaycanın səlahiyyətli orqanları bu Şuradan çıxmağa dair qərar vermişdir. Azərbaycan kimi təbii sərvətlərlə zəngin ölkədə gəlirlərin uçotu rüşvətxorluqla mübarizə üçün vacibdir. 2003-cü ildə HSŞT-yə qoşulandan bəri Azərbaycanda 20 hesabat üzləşdirilmiş və açıqlanmışdır. HSŞT-dən 2017-ci ilin mart ayında çıxan Azərbaycan hasilat sənayesində beynəlxalq şəffaflıq və hesabatlılıq prinsiplərinə daim sadiq qalacağını vəd etmiş və milli Hasilat Sənayesində Şəffaflıq Komissiyası yaratmışdır.

Qeydiyyat prosesinin əvvəl mürəkkəb olmasını qəbul etməklə yanaşı, səlahiyyətli orqanlar narahatlıq doğuran məsələlərin həllinə yardım üçün yaxın tarixlərdə müvafiq addımların atıldığını hesab edir. 2016-cı ilin oktyabr ayında prezident İlham Əliyev «vahid pəncərə» prinsipi əsasında xarici qrantların qeydiyyatının sadələşdirilməsi məqsədi daşıyan sərəncam imzalamışdır və Nazirlər Kabineti 2017-ci ilin yanvar ayında bəzi texniki prosedurları sadələşdirmişdir. İkitərəfli maliyyə razılaşmalarına əsasən verilmiş azadolmalara əsasən, Aİ onun təhsil və kənd / bölgə inkişafı sahəsində 2017-2018-ci illərdə verilmiş qrantlarının əksəriyyətinin qeydiyyatdan keçdiyini bildirmişdir. Bununla belə, xarici donorlar qrantların verilməsi hüququnu əldə etmək üçün müraciət etməlidirlər ki, burada da prosesin çətin və uzunmüddətli olması bildirilir. VCT-lərin fəaliyyət göstərəcəkləri sahə məhdud olaraq qalır.[13] Beynəlxalq qurumlar Azərbaycanı öz qanunvericiliyinə düzəliş etməyə və VCT-lər üçün tətbiq edilən məhdudiyyətləri aradan qaldırmağa səsləyir.[14]

*Müstəqillik və media plüralizminin senzura olmadan fəaliyyət göstərməsi*

Azərbaycanda bir sıra kütləvi mətbuat vasitələri fəaliyyət göstərsə də (o cümlədən milli əhatə dairəsi olan 11 televiziya stansiyası, radio kanalları, qəzet və İnternet təminatçıları), plüralist rəy və qərəzsiz məlumatlara çıxışı müvafiq beynəlxalq qurumlar tərəfindən məhdud hesab edilir. Beynəlxalq hesabatlara görə, mətbuat mühiti ötən Ölkə Strategiyası dövründə məhdudlaşdırıcı qanunvericilik, əsassız həbs və saxlamalar, cinayət təqibləri, böhtan iddiaları və jurnalistlərə digər təzyiq formalarının təsirinə məruz qalmışdır. Azərbaycanın *Azad Avropa / Azadlıq Radiosu* xidməti də daxil olmaqla, bir sıra mətbuat vasitələrinin fəaliyyəti dayandırılmışdır. Məhkəmə qərarları ilə bir neçə İnternet səhifəsi bağlanmışdır, qanun məsul nazirliklərə İnternet səhifələri ilkin məhkəmə qərarı olmadan müvəqqəti dayandırmaq səlahiyyəti verir.

*10. BMT-nin İnsan Hüquqları üzrə Komitəsi: Azərbaycanın dördüncü dövri hesabatına dair yekun Müşahidələrin aparılması, 16 noyabr 2016, səh, s. 9; BMT İHK: Xüsusi Məruzəçinin Azərbaycana missiyası zamanı insan hüququ pozunutları ilə bağlı hesabatı, 20 fevral 2017, s. 6-7, 11-12, 21-22; AŞPA: Qərarı 2184 (2017), 11 oktyabr 2017 və onu müşayiət edən hesabat; «Avropada QHT fəaliyyətlərinə yolverilməz qadağaların qarşısı nə cür alına bilər?» başlıqlı 2096 saylı (2016) 28 yanvar 2016-cı il tarixli Qərar"; «Azərbaycanda demokratik institutların fəaliyyəti»nə dair 2062 (2015) saylı 23 iyun 2015-ci il tarixli qərar; Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı (CommHR): "İnsan hüquqları təşkilatları üçün məkanın məhdudlaşdırılması", Strasburq, 4 aprel 2017; EC/HR: Birgə İş Heyətinin İşçi Sənədi, Azərbaycanda Avropa Qonşuluq Siyasətinin İcrası, 2014-cü ildə irəliləyiş və tədbirlər üçün tövsiyələr. Brüssel, 25 mart 2015, s 4-5; Avropa Parlamentinin Azərbaycana dair 10 sentyabr 2015-ci il tarixli Qərarı (2015/2840(RSP))*
*11. Açıq Hökumət Tərəfdaşlığı: Azərbaycanın Açıq Hökumət Tərəfdaşlığında qeyri – fəal statusunu saxlaması. Vaşinqton, D.C., 29 iyun 2017.*
*12. HSŞT: Bəyanat 2017-15/BM-36/BP-36-5-A, 9 mart 2017.*
*13. EC/HR: Birgə İşçi Heyətinin İşçi Sənədi, düzəliş edilmiş ENP çərçivəsində AB – Azərbaycan əlaqələrinə dair hesabat, Brüssel, 19 dekabr 2017, s. 5; ATƏT/DTİHB: Azərbaycan Respublikası, Erkən Prezident Seçkiləri; 11 aprel 2018, Yekun hesabat, Varşava. 18 iyul 2018, s. 6.*
*14. AŞPA: Avropa Şurasına Üzv Ölkələrdə QHT fəaliyyətlərinə yeni məhdudiyyətlərə dair 2226 saylı qərar (2018) 27 iyun 2018; Avropa Parlamenti; Aİ – Azərbaycan Hərtərəfli Sazişinə dair Tövsiyə, 4 iyul 2018, s. 6.*

ATƏT-in Mətbuat Azadlığı üzrə Təmsilçisi (RFoM) səlahiyyətli orqanları mətbuata təsir edən qanunvericiliyə düzəliş etməyə səsləmişdir.[15]

ATƏT RFoM və Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı da həmçinin bir sıra jurnalist, bloger və sosial mətbuat fəallarının həbsdə saxlanılması hallarına dəfələrlə diqqət çəkmiş və səlahiyyətli orqanları belə jurnalistlərin azadlıq və təhlükəsizliyi üçün mənfi olan məhdudlaşdırıcı tədbirlərə son qoymağa səsləmişdir. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) jurnalistlərin sərbəst toplaşma azadlıqlarının qanunsuz məhdudlaşdırılması və həbsdə olarkən onlarla pis davranılmasına dair bir neçə hal üzrə qərar vermişdir. Avropa Şurası Nazirlər Komitəsi bu məsələ ilə bağlı bir neçə qərar qəbul etmişdir.[16]

Böhtan həm çap və həm də onlayn mətbuatda cinayət pozuntusu olaraq qalmaqdadır, müvafiq beynəlxalq qurumlar belə böhtana görə cəzanın mülki sanksiyalarla əvəz edilməsini tövsiyə etmələrinə rəğmən böhtan və təhqirə görə cinayət müddəalarının tətbiqi daha da genişləndirilmişdir.

*Mülki və siyasi iştirakın çoxsaylı kanalları*
Qanunvericilik hökumətin insanları onlara təsir edən siyasi qərar və mövzular barədə məlumatlarla təmin etməsini tələb etsə də məlumatlara çıxış sahəsində geniş istisnalar və pozuntulara görə sanksiyaların olmaması narahatlıq doğuran məsələ olaraq qalmaqdadır.[17] Hökumət mülki vətəndaş cəmiyyəti və hökumət qurumlarının birgə fəaliyyət göstərdikləri fərqli dialoq platformalarına istinad etsə də VCT-lər ictimai məsləhətləşmə və hökumət siyasətinə dair qərarlarda məhdud iştirak imkanlarını qeyd edir. 2016-cı ilin noyabr ayında Azərbaycanda dövlət qurumları ilə VCT-lər arasında əməkdaşlıq, məlumat mübadiləsi və tərəfdaşlığın gücləndirilməsi üçün Hökumət – Mülki Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının yaradılması alqışlanmışdır.

*Siyasi partiyalar yaratmaq azadlığı və təşkilatlanmış müxalifətin mövcudluğu*
Konstitusiya siyasi partiyaları yaratmaq hüququnu nəzərdə tutur. Azərbaycanda əllidən artıq qeydiyyatdan keçmiş siyasi partiya olsa da, ümumi siyasi vəziyyətdə həqiqətən plüralist siyasi mənzərənin yoxluğu nəzərə çarpır.[18] Hakim Yeni Azərbaycan Partiyası qanunvericilik və ümumi siyasi sistemə nəzarət edir. Siyasi müxalifət mövcud olsa da və təşkilatlansa da, prezident və hakim partiya ilə ciddi rəqabət edə bilməməsi görünür. 2015-ci ilin noyabr ayındakı son parlament seçkilərində bir neçə siyasi partiya iştirak etsə də əsas müxalif partiyalar seçkiləri boykot etmişdir. Əlavə parlament müxalifəti öz fəaliyyətlərini məhdud şəraitdə həyata keçirir və beynəlxalq qurumlar siyasi partiyaların sərbəst seçki kampaniya keçirmək imkanından şübhə etdiklərini bildirmişlər.[19]

*15. Mətbuat Azadlığı üzrə ATƏT Təmsilçisi (RFoM): 10 avqust 2018-ci il Bəyanı.*
*16. ATƏT RFoM: 12 yanvar 2018-ci il tarixli bəyanları, 25 avqust və 6 mart 2017, 23 və 17 noyabr 2016, digərləri; Avropa Şurası Nazirlər Komitəsi (CM): CM/ResDH(2014)183, CM/ResDH(2015)250 və CM/ResDH(2016)145; CommHR: Bəyannamə "Azərbaycan öz fikirlərini sərbəst bildirdiklərinə görə və ya qanuni fəaliyyətə görə həbs edilmiş şəxsləri həbsdən azad etməlidir", 17 May 2017;. Bax həmçinin: AŞPA: «Avropada jurnalistlər və mətbuatın azadlığına hücumlar» adlı 2141 saylı (2017) 24 yanvar 2017-ci il tarixli qərar", s. 3, və 2184 (2017) saylı qərar, s.2; Avropa Parlamenti: Əfqan Muxtarlının işi və Azərbaycanda mətbuatın ümumi vəziyyəti, 15 iyun 2017-ci il tarixli Qərar (2017/2722(RSP)); ATƏT/DTİHB: Azərbaycan Respublikası; Erkən Prezident Seçkisi, 11 aprel 2018, Yekun Hesabat, s 2-3, 15-17.*
*17. BMT İHK: BMT-nin Xüsusi Məruzəçisinin Azərbaycana missiyası zamanı insan hüquq müdafiəçilərinin vəziyyətinə dair hesabatı, s. 10-11; İƏİT:Azərbaycanda Korrupsiya ilə mübarizə İslahatları, İstanbul Korrupsiya ilə Mübarizə üzrə Fəaliyyət Planının Monitorinqinin Dördüncü Dövrəsi, 10 sentyabr 2016, s. 8.*
*18. Korrupsiyaya Qarşı Avropa Dövlətlər Qrupu Şurası (GRECO): Üçüncü Dəyərləndirmə Dövrəsi. Azərbaycan üzrə İkinci Uyğunluq Hesabatına İkinci Əlavə, «Partiya Maliyyələşdirməsinin Şəffaflığı», Strasburq, 24 mart 2017, s. 8.*
*19. AŞPA: 2 saylı Qərar 2184 (2017), s. 3; IEOM: İlkin Aşkar edilmiş Fakt və Rəylərin Bəyanı, Azərbaycan Respublikası – Erkən Prezident Seçkisi, 11 aprel 2018, s. 14.*

European Bank for Reconstruction and Development

**_Qanunun Aliliyi və Məhkəməyə Çıxış_**

*Qanunun aliliyi*
Konstitusiya ölkənin ali qanunudur. Ədalətli məhkəmə hüququ qanunvericilikdə nəzərdə tutulsa da prokurorun güclü mövqeyi və ədliyyə sistemindəki çatışmazlıqlar bu hüquqa təsirini davam etdirir. Prokurorların qiymətləndirilməsi, təlimi və etik davranışları sahəsində irəliləyişlərə nail olunsa da prokrorluğa birbaşa prezident nəzarəti ilə bağlı narahatlıqlar qalmaqdadır. AİHM xüsusən də prokurorların hərəkətləri, qeyri-effektiv təhqiqat və təqsirsizlik prezumpsiyasına riayət edilməməsi hallarından narahatlığını bildirmişdir. Baş prokuror həbs qəti imkan tədbiri ilə bağlı əsas rolu özündə saxlayır və cinayət qanununun qeyri-düzgün tətbiqi və seçim əsaslı məhkəmə işləri ilə bağlı iddialar olmuşdur.[20]

*Məhkəmələrin müstəqilliyi*
Hakimlərin müstəqilliyi Konstitusiyada əksini tapmışdır. Məhkəmə Hüquq Şurasının (MHŞ) rolunun artırılması və bütövlükdə məhkəmənin müstəqilliyinin təminatı üçün son tədbirləri müvafiq beynəlxalq qurumlar alqışlamışlar. Bu tədbirlər hakimlərin təyini, vəzifədə irəli çəkilmə və nizam-intizam tədbirinin görülməsi, habelə onların seçilməsi proseduru və dəyərləndirilməsi sahəsində yaxşılaşmalar kimi məhkəmələrin maliyyə müstəqilliyi və özünü idarəetməsi ilə bağlı daha geniş səlahiyyətləri daxil etmişdir. Elektron məhkəmə sistemi yaradılma mərhələsindədir.

Belə müsbət irəliləyişlərə baxmayaraq, MHŞ-ləri icra orqanlarının yolverilməz müdaxiləsinə məruz qoyan tərkibi və bütövlükdə məhkəmə sisteminin müstəqillik və qərəzsizliyi ilə bağlı bir sıra narahatlıqlar qalmaqdadır. İcra orqanları məhkəmə sistemində mühüm təyinatlar üçün həddən artıq müstəsna səlahiyyətləri özündə saxlamaqda davam edir. Məhkəmə sistemində korrupsiya hallarına dair iddialar irəli sürülməkdədir. Məhkəmələrin müstəqilliyinin gücləndirilməsi və sistemə ictimaiyyətin inamını bərpa etmək üçün daha qətiyyətli və effektli tədbirlərin həyata keçirilməsinə ehtiyac var.[21]

*Hökumət və vətəndaşların qanun qarşısında bərabərliyi*
Konstitusiya bütün vətəndaşların qanun qarşısında bərabərliyinə təminat verir. Lakin səlahiyyətli orqanlar insan hüquqlarını pozması iddia edilən rəsmiləri heç də həmişə təhqiq etmək üçün tədbirlər həyata keçirmir.

*Korrupsiyanın qarşısının alınması üçün effektli siyasət və təşkilatlar*
Azərbaycan ictimai xidmətlər (ASAN xidmət mərkəzlərinin yaradılması), nəqliyyat polisi və təhsil kimi bir sıra sektorlarda korrupsiya ilə mübarizə sahəsində irəliləyişə nail olmuş, gömrük və biznesin lisenziyalaşdırılması sahəsində islahatlara başlamışdır. Hökumət 2016-2018-ci illər üzrə Açıq Hökumətin Təbliğinə dair Milli Fəaliyyət Planını qəbul etmişdir və burada məqsəd əsasən önləyici xarakterlidir.

*20. GRECO: Dördüncü Dəyərləndirmə Dövrəsi, Azərbaycana dair Uyğunluq Hesabatı, «parlament üzvləri, hakim və prokurorlarla bağlı rüşvətxorluğun qarşısının alınması", Strasburq, 17 mart 2017, s. 12-19 və 20; AŞPA: 2184 (2017) saylı Qərar, s. 1-3 və onu müşayiət edən hesabat, s. 7-8, və «Azərbaycanın Avropa Şurasına Sədrliyi»nə dair 2185 saylı (2017) 11 oktyabr 2017-ci il tarixli Qərar: insan hüquqları ilə bağlı gözlənilənlər?", s. 1 və onu müşayiət edən hesabat, s 16-17.*
*21. GRECO: Dördüncü Dəyərləndirmə Dövrəsi, Azərbaycana dair Uyğunluq Hesabatı, s. 6-12, 19-20; ABŞ İnsan Hüquqları Komitəsi: Azərbaycanın dördüncü dövrəsinə dair hesabat üzrə Yekun Müşahidələr, s. 6; AŞPA: 2184 (2017), s. 1 və 3  və onu müşayiət edən hesabat, s. 7-8.*

Bununla belə, ciddi və mürəkkəb rüşvətxorluq problemlərini hələ də aradan qaldırmaq tələb edilir.[22] «Transparency International» Təşkilatının 2018-ci il Korrupsiya Qavrama İndeksində Azərbaycan 180 ölkə arasında 152-ci yerdə qərarlaşmışdır – bu əvvəliki beş ildə Azərbaycanın yaxşılaşan mövqeyi fonunda 2017-cı illə müqayisədə əhəmiyyətli pisləşmədir. 2017-ci ilin mart ayında dərc edilmiş parlament üzvləri, hakimlər və prokurorlarla bağlı korrupsiyanın qarşısının alınmasına dair özünün son Dördüncü Dövrə Dəyərləndirməsində Korrupsiya ilə Mübarizə aparan Ölkələr Qrupu (GRECO) Azərbaycanın 21 tövsiyədən 11 tövsiyəni qənaətbəxş icra etməsi qənaətinə gəlmişdir (qalan tövsiyələrdən dördü qismən icra edilmiş, altısı isə ümumiyyətlə icra edilməmişdir). Azərbaycanın Qrup tövsiyələrini icra etməsi səyləri aydın qeyd edilməklə yanaşı, Qrup ölkəni islahatları davam etdirməyə ruhlandırmış və parlament üzvlərinə dair qaydalar ilə bağlı tövsiyələrin heç də hamısının tam icra edilmədiyini nəzərdə saxlamağı tövsiyyə etmişdir.[23]

***Mülki və Siyasi Hüquqlar***

*Söz, məlumat, din, vicdan, yerdəyişmə, birləşmə, toplaşma və şəxsi mülkiyyətə sahiblik azadlığı*

BMT, ATƏT və Avropa Şurasının üzvü kimi, Azərbaycan mülki və siyasi hüquqların mühafizəsi sahəsində əsas beynəlxalq sazişləri imzalamışdır. Azərbaycan Respublikasının Konstitusiyası da əsas hüquq və azadlıqlara təminat verir.

2018-ci ildə Azərbaycan BMT İnsan Hüquqları Şurasının Beynəlxalq Dövri Baxışının üçüncü dövrəsini başa çatdırmışdır. Qəbul edilmiş 259 tövsiyədən Azərbaycan icra üçün 179 tövsiyəni icra üçün qəbul edərək 66 tövsiyəni qeyd etsə də, 8 tövsiyəni dəstəkləməmiş və izahat təqdim etməklə 6 tövsiyəni nəzərdən keçirməyəcəyini bildirmişdir.[24] 2017-ci ilin iyun ayında BMT İnsan Hüquqları Şurasının 35-ci sessiyasında Azərbaycan Saziş Orqanının bildirişinə tam cavab verən 33 ölkə arasında qeyd edilmişdir. BMT-nin insan hüquqlarına dair Saziş Qurumları və UDY mexanizmi çərçivəsində Azərbaycanın dövri hesabatlarının hazırlanması və tövsiyyələrin icrasına nəzarət üçün Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il sentyabr tarixli Qərarı ilə İşçi Qrupu təsis edilmişdir. İşçi qrupunun yaradılmasını BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı alqışlamışdır.

Lakin hesabatvermə prosesi həm də UDY çərçivəsində onu göstərir ki, mülki və siyasi hüquqlar qanunvericilik səviyyəsində və praktikada məhduddur. Xüsusən də söz və toplaşma azadlıqları belə geniş məhdudiyyətlərin daha tez-tez tətbiq edildiyi sahələr kimi qeyd edilir,[25] buraya həm də qanunsuz həbs və həbsdə saxlama, pis davranma, insan hüquq müdafiəçiləri, mülki vətəndaş cəmiyyəti fəalları, gənc fəallar, siyasi rəqiblər, müstəqil jurnalist və bloqerlərin qanunsuz ittiham edilməsi aiddir. Qanunvericilik sərbəst toplaşma azadlığının yalnız əvvəlcədən bildiriş etməklə həyata keçirilə bildiyini qeyd etdiyi halda praktikada icazə sistemi tətbiq edilir. Ölkədə kütləvi toplaşmaların qadağan edilməsi və ya güclə dağılması halları baş vermiş, etiraz nümayişlərində iştirak edən şəxslərə qarşı inzibati və cinayət tədbirləri görülmüşdür.[26]

*22. İƏİT: Azərbaycanda Korrupsiya ilə Mübarizə sahəsində həyata keçirilən İslahatlar. İstanbul Korrupsiya ilə Mübarizə üçün Fəaliyyət Planının Dördüncü Dövrəsi, s. 6-11.*
*23. GRECO: Dördüncü Dəyərləndirmə Dövrəsi, Azərbaycana dair Uyğunluq Hesabatı, s. 19-20.*
*24. BMT İHK: Universal Dövri Baxışa dair İşçi Qrupunun Hesabatı – Azərbaycan, 11 iyul 2018, və Hesabata Əlavə ( təkmil redaktə edilməmiş versiya), 10 sentyabr 2018*
*25. Avropa Birliyi Şurası: 2016-cı ildə Dünyada İnsan Hüquqları və Demokratiyaya dair Aİ İllik Hesabatı, Lüksemburq, 16 oktyabr 2017, s. 70.*
*26. BMT-nin İnsan Hüquqları üzrə Komitəsi: Azərbaycanın dördüncü dövri hesabatına dair Yekun Müşahidələr, s. 8-9; AŞPA: 2184 (2017) saylı qərar, s 3; və 2185 saylı qərar (2017) və onu müşaiyət edən hesabat. s.12.*

BMT-nin Qanunsuz Saxlamaya dair İnsan Hüquqları üzrə Şurasının İşçi Qrupu 2016-cı ilin may ayında Azərbaycana etdiyi səfərdən sonra belə qənaətə gəlmişdir ki, «xüsusən də azadlıq və ya sağlamlıqdan məhrumetmə əsasları ilə, cinayət məhkəməsi və fikirləri rəsmi dövlətin fikirləri ilə üst-üstə düşməyən fərdlərin saxlanması kontekstində bir neçə narahatlıq doğuran məsələ» var."[27] Azərbaycana qarşı AİHM-in 120-dən çox hökmü ya icra edilməmiş və yaxud da qismən icra edilmişdir. Buraya xüsusən də söz və ifadə, toplaşma və birləşmə azadlıqları, pis davranma, ədalətli məhkəmə hüququnun pozuntusu halları aiddir.[28]

2019-cu ilin mart ayında Prezident İlham Əliyev 50-dən çox siyasi partiyanın nümayəndələrini, QHT-ləri, jurnalistləri və bloqerləri əfv etdi. Beynəlxalq ictimaiyyət bu addımı, həmçinin 2018-ci ilin avqustunda müxalif siyasətçi İlqar Məmmədovun sərbəst buraxılmasını, 2016-cı ilin mart-may aylarında və 2017-ci ilin sentyabr ayında bir neçə yüksək səviyyəli müxalifət və vətəndaş cəmiyyəti fəallarının və jurnalistlərinin əfv olunması və ya şərti azadlığa buraxılmasını müsbət hal kimi qiymətləndirib. Eyni zamanda beynəlxalq qurumlar Azərbaycan hakimiyyətini gələcəkdə də oxşar addımlar atmağa və Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq siyasi əsaslarla həbs edilmiş və ya hərəkəti məhdudlaşdırılmış şəxsləri qeyd-şərtsiz azad etməyə və bəraət verməyə çağırmaqda davam edir.[29] Beynəlxalq və yerli QHT-lər Azərbaycanın Vəkillər Kollegiyasına buraxılmayan və ya üzvlüyü dayandırılan insan haqları müdafiəçilərinin işlərinə də diqqət yetirir.

Azərbaycanda mülki vətəndaş və siyasi hüquqların ümumi vəziyyəti buna görə də beynəlxalq aləmin davamlı narahatlığına səbəb olmuşdur.[30] Lakin digər tərəfdən səlahiyyətli orqanlar beynəlxalq hesabatlardan bəzilərinin müsbət irəliləyişləri düzgün əks etdirmədiyini, yerində həqiqi vəziyyət barədə yanlış təəssürat yaratmağa çalışdığını və əsas azadlıqların ölkədə təmin edildiyini hesab edir.[31]

*Qadınlar üçün siyasi inklüzivlik, etnik və digər azlıqlar*

Qanun kişi və qadınlar arasında bərabərliyi nəzərdə tutub, irq, cins, əlillik, dil və ya sosial statusa görə ayrı-seçkiliyi qadağan edir.

Azərbaycan mədəniyyətlərarası dialoq, dini tolerantlıq və mədəni müxtəlifliyin inkişafı sahəsində roluna böyük dəyər verir. 2016-cı il Azərbaycanda multikulturalizm ili elan edilmişdir və Bakı BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna ev sahibliyi etmişdir. 2011-ci ildən bəri Bakı Mədəniyyətlərarası Dialoq üzrə iki ildən bir keçirilən Dünya Forumuna da ev sahibliyi etmiş, 4-cü tədbir isə 2017-ci ilin may ayında keçirilmişdir.

Azərbaycan parlamentdə təmsil edilən qadınlara görə öz qonşularından daha yüksək mövqedə olsa da, 17%-ə bərabər olan bu rəqəm (2008-ci illə müqayisədə təxminən 6% artım) Avropanın 26%-lik orta səviyyəsindən aşağıdır. Eyni zamanda kiçik və ali nazir mövqelərindəki qadınların sayı cəmi 3% təşkil etdiyi halda, bu rəqəm Avropada 22%-dir. 2017-ci ilin fevral ayında Azərbaycanın birinci xanımı ölkənin yeni yaradılmış vitse-prezidenti vəzifəsinə təyin edilmişdir.[32]

*27. BMT İHK: İşçi Qrupunun Azərbaycana missiyası zamanı Qanunsuz Həbslərə dair Hesabatı, 2 avqust 2017, s. 15-16.*
*28. AŞPA: 2184 saylı Qərar (2017), s.2.*
*29. AŞPA: 2184 (2017) saylı Qərar, s 3; EEAS: Sözçünün Bəyanatı, Brüssel, 17 mart 2019, 14 avqust 2018 və 4 iyun 2017.*
*30. BMT İHK: Azərbaycan üzrə Tərtibat – Hesabat, 16 mart 2018; Aİ – Azərbaycan əlaqələrinə dair EC/HR Hesabatı, 11 mart 2019 və 19 dekabr 2017; Avropa Parlamenti: Aİ – Azərbaycan Hərtərəfli Sazişinə dair Danışıqlar üzrə Tövsiyə, 4 iyul 2018, s. 3-7; AŞPA: 2184 (2017) saylı, 11 oktyabr 2017ci il tarixli Qərar və onu müşaiyət edən hesabat; EC/HR: Avropa Qonşuluq Siyasətinin Azərbaycanda İcrası: 2014-cü ildə əldə edilmiş Nailiyyətlər və tədbirlər üçün tövsiyələr, Brüssel, 25 mart 2015.*
*31. BMT İHK: Azərbaycana səfəri zamanı Xüsusi Məruzəçinin Azərbaycanda insan hüquq müdafiəçilərinin vəziyyətinə dair hesabatı, Dövlət Şərhləri, 23 fevral 2017. s 1-14.*
*32. Avropa Şurasının Gender Bərabərliyi Komissiyası: Qadın və Kişilərin Qərarvermədə Balanslı İştirakı, Analitik Hesabat – 2016-cı il Məlumatları, Sentyabr 2017, s. 23-24.*

# Əlavə 1 – 1-ci Maddə Kontekstində Siyasi Qiymətləndirmə

Gəlirlərin əldə edilməsində genderlər arasında fərqlərin azaldılması, bəzi peşələr və parlamentdə qadınların daha yaxşı təmsil olunması sayəsində Azərbaycan Qlobal Gender Bərabərliyi İndeksindəki yerini 2017-ci ildə 144 yer arasından 98-ci yerdəki mövqeyini və 2018-ci ildə 149 yer arasından 97-ci yerə endirməklə yaxşılaşdırmışdır.[33] Lakin BMT-nin İnsan Hüquqları üzrə Komitəsi ictimai və siyasi həyatda qadınların davamlı olaraq lazımi səviyyədə təmsil edilməməsi, patriarxal düşüncə tərzi, onların rol, məsuliyyətləri, kimlikləri, kişinin cəmiyyətdə rolu və həmçinin qadınlara qarşı zorakılıq hallarından narahatlığını saxlayır.[34]

Beynəlxalq qurumlar həm də Azərbaycanda fərqli əsaslarla ayrı-seçkiliyin dəf edilməsi üçün mövcud hüquqi çərçivənin müfəssəl olmaması və cinsi oriyentasiya, gender kimliyi əsasları ilə ayrı-seçkiliyi konkret qadağan etməməsi, ayrı-seçkilik və zorakılıq hallarına görə cəzasızlıqdan da narahatlıqlarını ifadə etmişlər.[36]

*Zorakılıq, hədə-qorxu və işgəncələrdən azadlıq*

Azərbaycan BMT-nin İşgəncə və Digər Amansız, Qeyri-insani və ya Alçaldıcı Hərəkət və ya Cəzaya qarşı Konvensiyasının üzvüdür. Konstitusiya və Cinayət Məcəlləsi də belə hərəkətləri qadağan edir. Lakin beynəlxalq monitorinq təşkilatları həbs qəti imkan tədbiri, hüquq-mühafizə orqanları tərəfindən pis davranış və işgəncə hallarının davamlı olaraq həddən çox istifadəsini bildirmişlər. 2018-ci ilin iyul ayında İşgəncə və Digər Amansız, Qeyri-insani və ya Alçaldıcı Hərəkət və ya Cəzaya qarşı Avropa Şurasının Komitəsi (CPT) Azərbaycana etdiyi altı səfərinin nəticələri barədə hesabat dərc etmişdir (2004, 2012, 2013, 2015, 2016 və 2017). CPT-nin Azərbaycandakı vəziyyət barədə ümumi təəssüratı polis, digər hüquq-mühafizə orqanları və ordunun işgəncə verməsi və digər fiziki zorakılıq formalarının «sistemli, geniş yayılmış və endemik qalması»nı bildirmişdir. Komitə həm də qeyd etmişdir ki, cəzasızlıq və pis davranma hallarının düzgün təhqiq edilməməsi kimi «ciddi problem» də mövcuddur. Eyni zamanda CPT Azərbaycanın səlahiyyətli orqanlarının şəffaflığa dair yeni öhdəlik əlaməti kimi bütün bu hesabatları dərc etməsi qərarını alqışlamışdır (indiyədək gizli saxlanılırdı).[36]

2017-ci ilin fevral ayında Azərbaycan prezidenti penitensiar xidmət, islah siyasətinin təkmilləşdirilməsi, alternativ sanksiyaların geniş tətbiqi, təcridxanadan kənar profilaktika tədbirlərin həyata keçirilməsinə dair sərəncam imzalamışdır və bu islahat müsbət qarşılanmışdır.[37] 2017-ci ilin dekabr ayında parlament Cinayət Məcəlləsi, Cinayət Proseduru Məcəlləsi və İnzibati Prosedur Məcəlləsində bir sıra qanunvericilik düzəlişləri etmişdir. Prezident həm də Probasiya Xidmətinin yaradılmasına dair sərəncam imzalamışdır.

*33. Dünya İqtisadi Forumu: Qlobal Gender Boşluğu Hesabatı 2017, s. 72; Dünya İqtisadi Forumu, Qlobal Gender Boşluğu Hesabatı 2018, s. 78*
*34. BMT İnsan Hüquqları Komitəsi: Azərbaycan Dördüncü dövri hesabatına dair bağlı Yekun Müşahidələr, s.3-4*
*35. Ibid., p. 2. Bax həmçinin: Düzəliş edilmiş ENP çərçivəsində Aİ – Azərbaycan əlaqələrinə dair EC/HR Hesabat, Brüssel. 19 dekabr 2017, s. 6.*
*36. Avropa Şurasının «Azərbaycanda hüquq-mühafizə orqanlarının işgəncə verməsi, cəzasızlığı və rüşvətxorluğu sistemli və geniş problem olaraq qalmaqdadır – yeni işgəncə əleyhinə komitə buraxılışları", Strasburq, 18 iyul 2018; bax həmçinin, BMT-nin İnsan Hüquqları Komitəsi: Azərbaycanın dördüncü dövri hesabatına dair yekun Müşahidələr, s. 5; BMT İHK: İşçi Qrupunun Azərbaycana missiyası zamanı Qanunsuz Həbsə dair Hesabatı, s. 1-20.*
*37. AŞPA: 2184 (2017) saylı Qərar, s. 1; BMT İHK: İşçi Qrupunun Qanunsuz Həbsə dair Hesabatı, s. 15-20.*